

## Misirli professor: “İlham Əliyev müharibə və sülh dövrünün qəhrəmanıdır”

2

SƏS

№ 235 (6435) 23 dekabr 2021-ci il. Qiymәti 40 qəpik

# Azərbaycan-İran dostluq əlaqələri genişlənir

2



## Prezident İlham Əliyev İranın xarici işlər nazirini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahiannın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

# FATEH SƏRKƏRDƏ

## İlham Əliyevin fəlsəfəsi - BİR PORTRET HAQQINDA DÜŞÜNCƏLƏR




## YAP Gənclər Birliyinin növbəti iclası keçirilib



5

## Erməni qoşunları Zəngəzurdan niyə çıxarılıb?



## Azərbaycanda dollar bahalaşacaq?



## POLİTOLOQ: “Ermənilərin təxribatları sona yetəcək”



5

*"Brüssel görüşündən sonra erməni təxribatları dayandırılacaq. Bunun üçün müəyyən mühakimələr də söyləmək olar". Politoloq Qabil Hüseynli "Səs" qəzetinə açıqlamasında belə deyib.*

## Paracüdo üzrə növbəti dünya çempionatı Bakıda keçiriləcək

*Azərbaycanda paracüdo üzrə növbəti dünya çempionatı keçiriləcək. Azərbaycan Milli Paralimpiya Komitəsinin yaydığı məlumatda deyilir ki, yarış 2022-ci il noyabrın 7-9-da Bakıda təşkil ediləcək.*



16




## İlham Əliyev: “Minsk Qrupunun fəaliyyəti uğursuzluq idi, biz həqiqəti deməliyik”

13

*“Minsk Qrupunun fəaliyyəti uğursuzluq idi. Biz əqiqəti deməliyik. Məsələnin gün işığı kimi aydın lduğu halda, biz siyasi korrektlik naminə bunun əksini söyləyə bilmərik”.*



## Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində enerji ehtiyatlarının ixracı başlıca amildir

12

*Sammitdə 44 gün davam edən İkinci Qarabağ müharibəsində qazandığımız Zəfərdən, ermənilərin işğal altında saxladıqları Azərbaycan...*

# Azərbaycan-İran dostluq əlaqələri genişlənir

## *Prezident İlham Əliyev İranın xarici işlər nazirini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahianın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Aşqabadda İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşünü xatırlatdı, bu görüş zamanı gələcək əməkdaşlıqla bağlı bir çox məsələlərin müzakirə edildiyini və Azərbaycan-İran dostluq əlaqələrinin bir daha təsdiqləndiyini bildirdi.

Hüseyn Əmir Abdullahian İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev İranın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

İranın xarici işlər naziri Prezident İlham Əliyevlə İran Prezidenti Seyid İbrahim Rəisinin Aşqabad görüşünə toxunaraq bu görüşü ölkələr arasında əlaqələrdə dönüş nöqtəsi kimi dəyərləndirdi.

Söhbət zamanı siyasi, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün birgə səylərin davam etdirilməsinin vacibliyi vurğulandı. Görüşdə ikitərəfli əməkdaşlığımızın gündəliyinin geniş olduğu bildirildi və yaxşı nəticələrin əldə ediləcəyinə ümidvarlıq ifadə olundu.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 572 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında Əsasnamə"də və "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri"ndə dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə Fərman imzalayıb.

# Misirli professor: "İlham Əliyev müharibə və sülh dövrünün qəhrəmanıdır"

***Prezident İlham Əliyev müharibə və sülh dövrünün qəhrəmanıdır. Qısa müddətdə başa çatdırılan hərbi əməliyyatlarda respublikasının ərazi bütövlüyünü bərpasını təmin etmək, eyni zamanda, xalqının rifahını yüksəltmək, ölkəsini tərəqqiyə qovuşdurmaq nadir dövlət başçılarına qismət olur.***




Düşünürəm ki, Azərbaycan Prezidentinin 60 illik həyatının ən parlaq səhifələrini yazması məhz xalqının öz Liderinə olan inamı, yüksək etimadı ilə bağlıdır. Bu amil Prezident İlham Əliyevin görkəmli dövlət xadimi, güclü sərkərdə və böyük diplomat keyfiyyətlərini tamamladı, ərazi baxımından kiçik olan bir ölkəni qlobal miqyasda böyük Qələbəyə qovuşdurdu. Dünyada işğala məruz qalmış bəzi ölkələrdən fərqli olaraq, sonu bilinməyən danışıqlar prosesinin nəticə vermədiyini görən Azərbaycanın dövlət başçısı lazımi məqamda, geosiyasi və regional dəyişikliklər fonunda bütün məsuliyyəti öz üzərinə götürdü və xalqına böyük Zəfər yaşatdı.

Bu sözləri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində Misir Xarici Əlaqələr Şurasının üzvü, Qahirə Universitetinin Rusiya Araşdırmalar Mərkəzinin direktoru professor Nurhan əl-Şeyx söyləyib.

O əlavə edib: "Prezident İlham Əliyevin müdrikliyi ondadır ki, hətta müharibədə qazanılan tam Qələbədən sonra da məğlub ölkəyə dayanıqlı sülhü təmin etmək məqsədilə müqavilə imzalamağı, beynəlxalq və regional tərəqqi naminə müvafiq razılaşma əldə olunmasını təklif edir. O, bununla təkcə öz ölkəsinin deyil, eyni zamanda, Cənubi Qafqazın Lideri kimi regionun təhlükəsizliyini də möhkəmləndirmək istəyir".

Tərəqqi, quruculuq, sülhpərvər missiyanı uğurla həyata keçirən Azərbaycan Prezidentinə uğurlar arzulayan professor bildirib: "Azərbaycan xalqı xoşbəxtdir ki, Prezident İlham Əliyev kimi Lideri var".

# İvo Yosipoviç: "Prezident İlham Əliyev qlobal siyasi arenanın mühüm şəxsiyyətidir"

Azərbaycanda, xüsusilə də Bakıda dəfələrlə olmuşam. Avropa Şurasının eksperti kimi Azərbaycana ilk səfərim təxminən 2000-ci ildə olub. O vaxtdan bəri Azərbaycanda iqtisadiyyatın, mədəniyyətin və memarlığın inkişafı inanılmazdır. Memarlıq və mədəniyyət sahələrində yeni, çox müasir tendensiyaların və ənənəvi elementlərin birgə vəhdəti valehedicidir. Həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq hüququ necə tətbiq etməsi və Qarabağ torpaqlarının yenidən inteqrasiyası heyranedicidir. Builki Bakı Qlobal Forumunda Prezident Əliyevi dinləyərkən əmin oldum ki, Azərbaycan müharibədə Qələbə qazandıqdan sonra sülh quruculuğu prosesində də qalib gəlmək, etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar üçün bərabər hüquqları və firavanlığı təmin etmək üçün kifayət qədər cəsarətə malikdir. Bu gün Azərbaycan mühüm, inkişaf edən, demək olar hər gün dəyişən, sürətlər irəliləyən və böyük nailiyyətlər qazanan ölkədir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Xorvatiyanın 2010-2015-ci illərdə sabiq Prezidenti İvo Yosipoviç söyləyib.

Dövlətimizin başçısı İlham Əliyevin 60 illik yubileyi münasibətilə təbriklərini çatdıran sabiq Prezident deyib. "Xorvatiyanın sabiq Prezidenti kimi mənim Prezident İlham Əliyevlə ikitərəfli və çoxtərəfli əsasda görüşmək imkanlarım olub. Bu gün ölkələrimizin iqtisadiyyat, mədəniyyət və digər sahələrdə əməkdaşlığı getdikcə genişlənir. Prezidentlik fəaliyyətimdən sonra Azərbaycan mədəniyyətini, xüsusilə dahi şair Nizami Gəncəvinin yaradıcılığını təbliğ edən çox uğurlu təşkilat olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin (NGİC) İdarə Heyətinin üzvü kimi Prezident İlham Əliyevlə görüşmüşəm. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, həmçinin beynəlxalq dialoqu və sülhü təşviq edir. Azərbaycan Prezidenti Mərkəzin fəaliyyətinə güclü dəstək verir. Prezident İlham Əliyev qlobal siyasi arenanın mühüm şəxsiyyəti və güclü milli liderdir".



# İnformasiya savaşının sərkərdəsi - İlham Əliyev qətiyyəti!



***Bəşər tarixinin son onillikləri müharibələrlə doludur, lakin heç bir dövlət başçısı bu müharibələr zamanı çoxlu sayda aparıcı KİV-in maraq dairəsinə düşməyib. Ancaq bir faktı vurğulamaq lazımdır ki, qətiyyətli, nüfuzlu siyasi rəhbərə, dövlət başçısına beynəlxlaq marağın yüksək olması və bu marağın müharibə zamanı xüsusilə yüksək olması tam məntiqlidir. Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevə müsahibə üçün dünyanın bir çox tanınmış media qurumlarının müraciət etməsi, ilk növbədə, Azərbaycan Prezidentinin nüfuzlu lider olmasından irəli gəlir.***

## HƏM HƏRB MEYDANINDA, HƏM DƏ DANIŞIQLAR MASASINDA - İLHAM ƏLİYEV QƏTİYYƏTİ

Tarix boyu həmişə belə olub ki, sərkərdəsi güclü olan ordu qalib olub, eynilə biz bu tarixi canlı olaraq yaşadıq. Xalq və ordu birliyi bütün dünya xalqlarına bir nümunə oldu. 44 gün davam edən İkinci Vətən Müharibəsi dövründə bizi qələbələrə aparan əsas faktorlardan biri möhtərəm Prezidentimizin savaş zamanı dünyanın 30-a yaxın mediasına çoxsaylı müsahibələr verdi, bir çox beynəlxalq tədbirlərdə etdiyi çıxış və bəyanatları ilə Qərb ictimai rəyində Azərbaycanın xeyrinə dönüş yarada bildi. Hətta qərəzli suallar qarşısında, sözün əsl mənasında, siyasi liderlik dərsi keçən Prezident İlham Əliyev özünün hazırlıqlı siyasətçi olduğunu sübuta yetirməklə yanaşı, Azərbaycanın haqlı mövqeyini konkret faktlarla ortaya qoydu, bütün dünyaya çatdırdı.

Müharibədən sonra 50-dən çox yerli və xarici media nümayəndələrinin iştirak etdiyi və 4 saatdan çox davam edən mətbuat konfransında isə Prezident İlham Əliyev jurnalistlərin suallarına dörd dildə - Azərbaycan, türk, ingilis və rus dillərində cavablandırdı. Hətta Böyük Britaniyadan olan jurnalist Aynur Tattersal mətbuat konfransında bildirdi ki, 25 ildir jurnalistika ilə məşğuldur, amma hər hansı prezidentin dörd dildə bu cür mətbuat konfransı keçirməsinin şahidi olmayıb. O, Prezidentin rekorda imza atdığını dilə gətirdi. Bu Ali Baş Komandanımızın sərrast fikirləri və mükəmməl diplomatiyası idi. Ümumilikdə, Prezident İlham Əliyev müharibə dövründə xarici mediaya verdiyi müsahibələrlə yalnız döyüş meydanında deyil, informasiya müharibəsində də Ali Baş Komandan xarici mediada hücum diplomatiyası sərgiləyərək tarixi həqiqətlər, Dağlıq Qarabağ münaqişəsinə dair vacib hüquqi və siyasi məqamlar barədə beynəlxalq ictimaiyyəti məlumatlandırıb. Onun gərgin əməyi və uğurlu informasiya siyasəti sayəsində dünya miqyasında ictimai rəyin Azərbaycanın lehinə dəyişməsi təmin edilib. Dövlət başçısının dünyanın nüfuzlu nəşrlərinə verdiyi müsahibələrdə təkcə erməni yalanları ifşa edilməyib, anti-Azərbaycan dairələrin qarayaxma kampaniyaları da iflasa uğradılıb. Qeyd edək ki, indiyə qədər Azərbaycan tərəfdən heç bir müsahibə, açıqlama, nitq, video, çıxış xarici mediada bu qədər izlənilməyib. İndi isə, artıq izlənilir. Cənab Prezidentin sayəsində. Yəni, məlum faktın özü yetərincə böyük göstəricidir və bu, Azərbaycana və onun Liderinə olan xoş münasibətin növbəti göstəricisidir.

Bir sözlə, dövlət başçısının həm müharibəni gedişində, həm də sonra beynəlxalq ictimai rəyi Azərbaycanın xeyrinə dəyişməyi necə bacardığının hər kəs şahididir. Mühüm beynəlxalq platformalarda nitqləri, müzakirələrdə iştirakı ilə Azərbaycan Prezidenti aydın göstərir ki, Azərbaycan iqtidarı dövlət idarəçiliyi, daxili və xarici siyasət məsələlərinə konseptual yanaşır. Bu amil demək olar dünyanın bütün aparıcı media orqanları tərəfindən vurğulanır. Xüsusilə də, Prezident İlham Əliyevin "CNN Türk" telekanalına müsahibəsi də əvəlki müsahibələri kimi Prezident, Ali Baş Komandan İlham Əliyevin "CNN Türk" televiziya kanalına müsahibəsi beynəlxalq aləmdə böyük əks-səda doğurub. Dövlət başçısı bu müsahibə zamanı bir daha Ermənistana və onu silahlandıranlara növbəti xəbərdarlıq etməklə Azərbaycanın qətiyyətli mövqeyini nümayiş etdirdi.

## MƏTBUAT KONFRANSLARI AZƏRBAYCAN PREZİDENTİNİN GÜCLÜ VƏ XARİZMATİK DÖVLƏT BAŞÇISI VƏ QƏTİYYƏTLİ LİDER OLDUĞUNU BİR DAHA GÖSTƏRDİ

Ən qürurverici odur ki, müharibədən sonra 50-dən çox yerli və xarici media nümayəndələrinin iştirak etdiyi və 4 saatdan çox davam edən mətbuat konfransında KİV nümayəndələri, eləcə də bütün dünya mətbuatında dövlətimizin başçısının sualları yüksək diplomatik məharət, natiqlik nümayiş etdirərək, səlis, təfərrüatlı, dəqiqliklə, məntiqlə, tam əsaslandırılmış şəkildə, özü də müxtəlif dillərdə cavablandırması, sözün həqiqi mənasında, heyrət doğurmuşdu. Dövlətimizin başçısı mətbuat konfransında bir çox önəmli mesajlar da verdi və onun hər fikrini maraqla dinləyən geniş bir auditoriya var idi. Hər kəs Prezident İlham Əliyevin nə qədər uzaqgörən, müdrik bir siyasi xadim olduğunu bir daha gördü.

Belə ki, həmin mətbuat konfransında Böyük Britaniyadan olan müstəqil jurnalistin sözləri də bir daha deyilənlərin göstəricisidir: "Cənab Prezident, bizi bura dəvət etdiyinizə görə Sizə təşəkkür edirik. Düşünürəm ki, mətbuat konfransının uzunluğuna görə Siz artıq dünya rekorduna imza atmısınız. Mən 25 ildir jurnalistika ilə məşğul oluram, ancaq hər hansı bir Prezidentin 4 dildə bu cür mətbuat konfransı aparmasının şahidi olmamışdım".

Həmçinin, KGK İdarə Heyətinin sədri Mehmet Ali Dim, Prezidentin 4 saatlıq fasiləsiz konfransla dünya rekordu qırdığını söyləyib: "Mən hələ belə bir səbirli lider görməmişəm. Bütün suallara səmimi cavab verdi. Azərbaycan xalqı çox şanslıdır. Bu cür təcrübəli və savadlı lider hər ölkədə ola bilməzdi". Londonda fəaliyyət göstərən jurnalist, KGK baş katibinin müavini Aynur Tattersall isə dünya liderləri ilə görüşməyin ortalama yarım saatdan 1 saata qədər davam etdiyini bildirib: "25 ildir jurnalistəm, dünyanın dörd bir yanında mətbuat konfranslarını izləmişəm. Dünya liderinin hər suala jurnalistin öz dilində bu qədər uzun müddət cavab verdiyini ilk dəfədir görürəm".

Bax, budur Liderlik! Necə də qürur duymayasan. Güclü ölkənin güclü, qətiyyətli lideri olmaq budur. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir". Bu uğurlar, əlbəttə ki, bu, son 18 illik prezidentlik fəaliyyəti nəticəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin möhkəm iradəsi, qətiyyəti, müdrikliyi sayəsində baş verdi. Hər zaman ilklərə imza atan Prezident İlham Əliyev fevralın 26-da keçirdiyi mətbuat konfransı ilə dövlətimizin başçısı daha bir ilkə imza atdı. Bu, Azərbaycan Prezidentinin yerli və xarici media nümayəndələri ilə dörd saatdan artıq davam edən ilk görüşü idi. Dövlətimizin başçısı bu məsələyə toxunaraq dedi: "Mən bilirəm, hərdən yerli jurnalistlər də bir növ gileylənirdilər ki, niyə Prezident Əliyev mətbuat konfransları təşkil etmir, müsahibələr vermir. Mən hesab edirəm ki, hər bir işin öz vaxtı var. Sənin vermək istədiyin bir mesaj varmı və səni dinləyəcək bir auditoriya varmı? Müharibə vaxtı 44 gün ərzində mən 30-dan artıq müsahibə verdim, çünki buna ehtiyac var idi. Mən dünyaya mesajımızı çatdırmaq istəyirdim, mən həqiqəti və mövqeyimizi dünyaya çatdırmaq istəyirdim. Hər gün mən bəyanatlar verirdim, Azərbaycan xalqına müraciətlər edirdim. Çünki buna ehtiyac var idi, xalqımızın buna ehtiyacı var idi, ordumuzun buna ehtiyacı var idi. Bilirəm ki, mənim həmin o müraciətlərim və mesajlarımın ümumi qələbəmizdə böyük rolu olmuşdur".

Beləliklə, Prezident İlham Əliyevin keçirdiyi mətbuat konfransı Azərbaycan həqiqətlərinin bir daha dünyaya çatdırılması, regionda yaranmış yeni reallıqlara və bölgənin gələcəyi ilə bağlı məqamlara aydınlıq gətirilməsi baxımdan çox uğurlu oldu. Azərbaycan Prezidenti bir daha dünyanın diqqətini özünə cəlb etdi. Bu mətbuat konfransı informasiya cəbhəsində Azərbaycanın mövqeyini daha da gücləndirdi.

Bir sözlə, həm hərb meydanının, həm də informasiya savaşının sərkərdəsi cənab Ali Baş Komandan ön cəbhədə döyüşən əsgər və zabitlərimizə öz əmrlərini verərək onlardan qələbə qazanmağı tələb etdiyi zamanda, eynilə dünyanın tanınmış KİV-lərinə müsahibə verərkən həm də yerli media nümayəndələrinə informasiya savaşında məğlub olmamaq tələbini göstərməklə bir daha bütün dünya İlham Əliyevin qətiyyətinin, yüksək liderlik keyfiyyətlərinin, siyasi müdrikliyinin və uzaqgörənliyinin şahidi oldu. Beləliklə, döyüş meydanının qalibi olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev informasiya savaşında da qalib oldu. Ən mühümü odur ki, Azərbaycan Prezidenti həm də erməni təbliğatına düşmənin maraqlarını müdafiə edən informasiya məkanlarında tutarlı zərbə vurdu, Ermənistanın, dünya erməniliyinin, həm də erməni lobbisinin Azərbaycana qarşı qərəzli informasiya mühiti yaratmaq xülyası iflasa uğradı.

**_RƏFİQƏ KAMALQIZI_**

ARAŞDIRMA

# Uşaqlar niyə cinsi zorakılığa məruz qalır?

***"Save the Children" təşkilatının hesabatına görə, dünyada münaqişə zonalarında yaşayan təxminən 72 milyon uşaq cinsi zorakılıq riski altındadır. Təşkilatın Münhen Təhlükəsizlik Konfransı üçün hazırladığı rəqəmsal hesabatda ümumilikdə 426 milyon uşağın münaqişə zonalarında yaşadığı və bu qrupdakı hər altı uşaqdan birinin silahlı şəxslər tərəfindən cinsi zorakılığa məruz qalma riski altında olduğu vurğulanıb.***



Təhlükənin son 30 ildə az qala on qat artdığı ifadə edilən hesabatda xüsusilə İraq, Yəmən, Kolumbiya, Somali, Cənubi Sudan və Suriyada uşaqların böyük risk altında olduğu qeyd edilib. "Save the Children" təşkilatının araşdırmasına görə, hazırda 426 milyon olan cinsi təcavüz riski altında olan uşaqların sayı 1990-cı ildə təxminən 8,5 milyon idi.

Təşkilatın "seksual zorakılıq" anlayışına təcavüz, cinsi köləlik, məcburi fahişəlik, məcburi hamiləlik, məcburi sterilizasiya və ya sünnət kimi cinsi orqanlara xəsarət yetirmə əməlləri daxildir.

### BMT-nin rəqəmləri fərqlidir

Birləşmiş Millətlər Təşkilatının (BMT) məlumatları göstərir ki, cinsi zorakılığa məruz qalan uşaqların sayı "Save the Children" təşkilatının irəli sürdüyü rəqəmlərdən azdır. Müvafiq olaraq, 2006-cı ildən bəri dünyada 20 000-dən çox uşaq münaqişə şəraitində cinsi zorakılığa məruz qalıb. Lakin "Save the Children" təşkilatının rəhbəri Susanna Krügerin sözlərinə görə, "rəsmi məlumatlar aysberqin yalnız görünən hissəsini göstərir". Uşaqlara qarşı cinsi cinayətlərin sülh dövründə belə kifayət qədər qeydə alınmadığını ifadə edən Krüger, bunun qarşıdurma zamanlarında çox az edildiyini vurğulayır.

### Hansı ölkələrdə təcavüz daha çox olur?



Qlobal problemə çevrilən zorlama hadisələrinin bu gün yüzlərlə hüquqi tənzimlə ilə qarşısı alınmağa çalışılsa da, bütün dünyada yaşanmağa davam edir. Dünyada qadınların təxminən 35 faizinin həyatı boyu cinsi istismara və təcavüzə məruz qaldığı təxmin edilir. Afrika və Cənubi Amerika ölkələrində zorlama halları daha yüksəkdir.

Dünyada qadınların təxminən 35 faizi ömrü boyu cinsi təcavüzə məruz qalıb. Zorlama ilə bağlı məlumatı olan əksər ölkələrdə cinsi zorakılığa məruz qalmış qadınların 40 faizdən az hissəsi kömək istəyir, 10 faizdən azı isə hüquq-mühafizə orqanlarından kömək istəyir. Siyahıda Avropa ölkələrinin mövqeyi diqqət çəkib. İsveç, Belçika, Norveç, Almaniya və Fransa kimi ölkələrdə zorlama halları çox yüksəkdir. Cənubi Afrika dünyada zorlama hadisələrinin ən çox baş verdiyi ölkə olduğu halda, Türkiyə 119 ölkənin yer aldığı siyahıda 99-cu yerdə qərarlaşıb.

### Türkiyədə hər 100 min insandan 1,5-i zorlanılır

Türkiyədə hər 100 min adamdan 1,5-i məcburi cinsi təcavüzə məruz qalır. 119 ölkənin yer aldığı siyahıda 99-cu sırada olan Türkiyə, Almaniya, Fransa, İsveç və Yunanıstan kimi ölkələrdəki zorlama nisbətlərindən daha yaxşı yerdədir. 2020-ci ildə Türkiyədə 1071 nəfər zorlama qurbanı olub.

Ən çox zorlama faktı qeydə alınan ölkə indiyə qədər Cənubi Afrika olub. Afrikanın ən müasir ölkəsi olan Cənubi Afrikada hər 100 min adamdan 132,4-ü zorlanır. Cənubi Afrikada 2020-ci ildə 66 196 nəfər məcburi cinsi əlaqənin qurbanı olub. Botsvana bu sahədə Cənubi Afrikadan dərhal sonra gəldi.

Zorlama hadisələrinin ən az olduğu ölkə Lixtenşteyn olub. Dünyanın ən kiçik ölkələrindən biri olan Lixtenşteyndə 2020-ci ildə heç bir zorlama hadisəsi qeydə alınmayıb. Misir kiçik Avropa ölkəsindən dərhal sonra gəldi. Misirdə 2020-ci ildə hər 100.000 nəfərdən 0,1-i zorlanıb. Zorlamanın ən aşağı olduğu digər ölkələr isə aşağıdakılardır: Mozambik (0,2), Azərbaycan (0,2) və s.

Avropa ölkələrində zorlanma statistikası diqqət cəlb edir

Siyahının ilk 10-luğunda seçilən daha bir ölkə var idi. Avropanın ən firavan ölkələrindən biri olan İsveç zorlama hadisələrinin ən çox olduğu 6-cı ölkə oldu. İsveçdə 2020-ci ildə hər 100.000 nəfərdən 63,5-i zorlanıb. Siyahıya başçılıq edən digər Avropa ölkəsi isə Belçikadır. Belçikada bu göstərici 27,9-dur. Zorlama statistikası yüksək olan digər Avropa ölkələri bunlardır: İslandiya (24,7), Norveç (19,2), Fransa (16,2), Finlandiya (15,2) və Almaniya (9,4).



Azərbaycanda zorakılığa məruz qalmış qadınlar zorakılıq hallarını gizlətməyə çalışırlar. Qadınlar məruz qaldıqları zorakılıqla bağlı heç kimin məlumat almasını istəmirlər. Həmçinin uşaqlar da qorxub bunu gizlədir. SİA məsələ ilə bağlı araşdırma apararaq, psixoloq, sosioloq və ekspertlərin fikirlərini də öyrənib.

**Psixoloq Zeynəb Eyyubova**: "Son dövrün ən aktual problemlərindən biri uşaq zorakılığı, zorakılıq faktları, bunun alt planında intiharlar və s. olub. Uşaqlarımıza birinci zorakılığı öyrətmək lazımdır ki, nədir və necə qorunmalıdır. Uşaqlarımıza sənin özəl zonaların var, yəni, oğlan övladına oyrətməlisən ki, "bura intim zonadır heç kəs toxuna bilməz". Müəllim, tərbiyəçi, xala, bibi, dayı qəti olmaz və yalnız həkim toxuna bilər o da ehtiyac, zərurət olarsa valideynin nəzarəti altında ola bilər.

Valideyn uşağının dostlarını tanımalıdır. Yeniyetməlik dövrünün bir özəl xüsusiyyəti var ki, bu dövr ailədən ən çox qırılma dövrüdür.Uşaq ailədən qırılır deyə referant qruplarda özünü xoşbəxt hiss edir və bir ana-ata bilməlidir ki, mənim uşağım hansı referant qruplardadır, mənim uşağımın dostlarının marağı nədir. Bunları bilsələr zorakılıq faktlarında azalma və maariflənmə olar. Bugün elə bilirik ki, qızlara zorakılıq faktları daha çoxdur, amma statistikaya baxanda bugün yetərincə uşaqlar da bu barədə müraciət edir. Qorxurlar ki, "onlara sən kişi deyilsən", "sən təmiz deyilsən", qızlarımız "sən pak deyilsən" deyərlər. Nə qədər qızlar bizə müraciət edir. Artıq illər keçib 35-40 yaşı var 15-20 il bundan qabaqkı dövründən danışanda "Zeynəb xanım zatən mən desəydim heç kəs mənə inanmazdı. Mənə deyərdilər ki, sən nə etmişdin ki, bunu sənə etdilər" deyir.

Ailədaxili zorakılıqlar dırnaqarası abır və mental dəyərlərə görə gizlədilir. Analara deyirəm ki, müəyyən dövrdə qızlara menstruasiya haqqında məlumat verin. Oğlanlara kişi olma ilə bağlı bəzi prosesləri ataları başa salsın. Valideynləri çağırıram və deyirəm iştah kəsilməsi, gecə ağlamalar, kabus görmə, qışqırıqla oyanma, dayanmadan qusma, qaytarma, əsəb gerginliyi, özünə qapanma, səbəbsiz ağlama varsa bu sizin üçün həyəcan siqnalıdır. Həyəcan siqnalıdır ona görə ki, ola bilər ki, artıq hansısa hadisə baş verib və bu facię deyil, faciə bundan sonrasıdır. Siz əgər bir valideyn olaraq uşağın yanında olsanız çox gözəl seanslarla bu keçə bilər. Amma siz də cəmiyyət kimi onu qınaq obyektinə tutsanız artıq biz uşağımızı itirə biləcəyik və onu bədbəxtliyi ilə baş-başa qoyacağıq".



"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri, Azərbaycanın QHT sektorunun tanınmış təmsilçisi **Gülayə Səfərova** isə fikirlərini bu cür ifadə edib: "Çox təəssüf ki, azyaşlı uşaqlara qarşı zorakılıq hallarına istər dünyada, istərsə də ölkəmizdə tez - tez rast gəlirik. Ən acınacaqlısı da odur ki, azyaşlılara qarşı bu cür iyrənc əməllərin törədilməsi çox vaxt doğma ataları, qardaşları, atalıqları, yaxın qohumları tərəfindən baş verir.

Əfsuslar olsun ki, əksər hallarda uşaqlar qorxduğu üçün, bəzən hadisədən xəbər tutan valideynlər isə biyabır olmamaq üçün susurlar və bu cür hadisələri gizlətməyə çalışırlar. Bu da cinayətlərin ört-basdır edilməsinə, cinayətkarların cəzasız qalmasına səbəb olur. Təəssüf ki, bu məsələlər nə qədər gizlin qalacaqsa, belə hallar artmaqda davam edəcək, bununla da bu kimi cinayətlərin sayı getdikcə artacaq. Eyni zamanda zorlanma hadisəsi ona məruz qalaraq, qorxudan gizlədən uşaqların da, bilib susan valideynlərin də psixikasına, sağlamlığına ömrü boyu zərbə vurmaqda davam edəcək.

Cinayət Məcəlləsində bu cür hadisələrlə bağlı çox kəskin cəza növləri nəzərdə tutulub, eyni zamanda Qanunda yetəri qədər bu cür məsələlərə geniş yer verilib. Düşünürəm ki, bu cür hadisələrin gizlədilməməsi üçün əhali arasında maarifləndirmə işlərini gücləndirmək lazımdır".



*Ayşən Vəli*

# İsrailin nüfuzlu saytı Ermənistanda artan antisemitizmdən yazır

### İsrael Hayom: ”Erməni məni “sionist murdarı” adlandırdı”

İsrailin nüfuzlu Israelhayom.com ingilisdilli saytında Ermənistanda antisemitizmin artması ilə bağlı material dərc edilib. SİA-nın məlumatına görə, materialda bir sıra maraqlı məqamlar yer alıb. ”Məlum olduğu kimi, koronavirusun ”omikron” adı altındakı ştammı sürətlə yayılmaqdadır və bir çoxları ehtiyat edirlər ki, onun inkişafı bütün dünya üzrə antisemitizmi artıracaq, belə ki, insanlar öz qəzəblərini və kədərlərini yəhudilərlə əlaqələndirəcək”, deyə qeyd edilən yazıda daha sonra bildirilir ki, bir vaxtlar çoxları antisemitizmin Amerikada və Avropada sürətlə artımı barədə danışarkən, daha bir ölkə də var ki, orada da müvafiq problem mövcuddur. Bu, bir çox gözlərdən gizlənən Ermənistandır.

ISRAEL HAYOM
This is where we stand

### Massaçusetsdə dərc edilən ”Armenian Weekly” qəzeti İsrailin Azərbaycana silah satışını ittiham edib

Müəllif ictimailəşdirdiyi fikirlərinə görə, ermənilər tərəfindən təhqirlərə və təzyiqlərə məruz qaldığını da bildirib: ”Bir neçə gün əvvəl mənim işlərimi tənqid edən erməni Linkedin (mesajlaşma sosial şəbəkəsi-R.R.) üzərindən xəbər yollayaraq məni ”sionist murdarı” adlandırdı. Bu insanın sözlərinə görə, İsrail insan həyatını qiymətləndirmir və yəhudi üstünlüyünü irəli sürür. ”İsrailin süqutu kifayət qədər tez bir zamanda baş verə bilər. İsrail dünya üzrə nəhəng terror ixracatçısıdır. Ar olsun sizə və sionist məxluqlarına, hansı ki, siz onları təmsil edirsiniz”, deyə erməni istifadəçisi yazıb.

Müəllif həmçinin bildirir ki, belə bir onlayn-antisemit hücumu onun tərəfindən dərc edilən məqaləsindən sonra baş verdi. Məqalədə deyilirdi: ”Massaçusetsdə dərc edilən ”Armenian Weekly” qəzeti İsrailin Azərbaycana silah satışını ittiham etdikdən sonra, İsraillə Azərbaycanın strateji partnyorluğu hücuma məruz qaldı və təsdiq edildi ki, bu, Ermənistanın ”Həmas” hərəkatını və ”Hizbullahı” silahla təchiz etməsi ilə eyniləşdiriləcək”.

### Azərbaycan ravvini Zamir İsayevin də təsdiq etdiyi kimi, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Ermənistanda antisemitizm yalnız gücləndi

Sözügedən yazıda İsrailə qarşı hərbi cinayətlərdə iştirakına görə əsassız ittihamlar yağdırılıb, bununla yanaşı, Azərbaycan da hədəfə alınıb.

Daha sonra yəhudi jurnalist sual verir: bu, düşünməyə vadar edir ki, Ermənistanda antisemitizm problemi varmı? Belə ki, Azərbaycan ravvini Zamir İsayevin də təsdiq etdiyi kimi, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Ermənistanda antisemitizm yalnız gücləndi: ”Bu, normaldır, belə ki, həmin məsələ İsrailin Azərbaycanı dəstəkləməsinə görədir. Belə bir hal ermənilərin İsrailə və yəhudilərə daha çox, hətta ondan da artıq nifrət etmələrinə məcbur edir”.

Müəllif qeyd edir ki, antidiffamasiya liqası da Ermənistandakı təhlükəli antisemitizm mənzərəsini şərh edib: ”Aparılan sorğuya görə, ermənilərin 68%-i hesab edir ki, yəhudilər digər ölkələrə nisbətən İsrailə daha loyaldırlar; 72%-i isə hesab edir ki, iş dünyasında kifayət qədər böyük hakimiyyətə malikdirlər; 60%-i belə nəticəyə gəlir ki, yəhudilər özlərindən başqa heç kimin qayğısına qalmırlar; 53%-i isə belə düşünür ki, yəhudilər digər insanlardan daha yaxşıdırlar”.

ABŞ-ın Dövlət departamenti Ermənistandakı dini azlıqların haqlı ittihamlarını dəstəkləyib

İsrailli jurnalist ABŞ-ın Dövlət departamentinin dini etiqad azadlığı ilə bağlı məruzəsində ADL-in araşdırması ilə bölüşdüyünü yazıb. ”Ermənistanın dini azlıqları bildirirlər ki, onlar öz cəmiyyətlərinə qarşı nifrətlərlə və əsassız təqiblərlə qarşılaşmaqda davam edirlər. Onlar qeyd ediblər ki, bəhayi və s. azlıqlar da Ermənistanda təqiblərə məruz qalırlar və onları ən çox narahat edən bu ölkədə antisemitizmin dinamik artımıdır”, deyə bildirilir.

Qeyd olunur ki, müşahidəçilərə görə, İsrailə qarşı iudafobiya İsrailin Azərbaycana silah verməsindən sonra sürətlə artıb və sosial şəbəkə platformalarında yəhudiləri hədəfə alan karikaturalar, antisemit şüarlar yerləşdirilib. Xüsusilə, Facebook-da yazılan postlarda ağır təhqirlərə yol verilib. Xatırladaq ki, bu barədə ABŞ-ın Dövlət Departamenti qeyd edir.

### Yəhudi icma izvləri xəbər verirdilər ki, ermənilər onları ictimai nəqliyyatda, sosial şəbəkələrdə təhqir edir, nalayiq ifadələr səsləndirirdilər

Məqalədə bildirilir ki, yəhudi cəmiyyətlərinin və s. ekspertlərin sözlərinə görə, 2020-ci ilin payızında - hərbi əməliyyatların intensivliyi dövründə Ermənistanda antisemit fikirlərin sayı sürətlə artdı. Yəhudilərin icma üzvləri həmçinin xəbər verirdilər ki, ictimai nəqliyyatda da onlara qarşı nalayiq ifadələr səsləndirilirdi. İrəvanda tarixdə insanlığa qarşı ən nəhəng cinayətlərdən biri olan Holokost soyqırımının xatirəsinə ucaldılmış abidə təhqirə məruz qaldı. Əvvəlcə, oktyabrın 14-də rənglendi, üzərindən bir həftə keçəndən sonra qarşısında ağaclar yandırıldı və abidəyə zərər vuruldu. Yəhudi cəmiyyətinin üzvləri dəymiş zərəri aradan qaldırdılar və abidəni bərpa etdilər.

”Ermənistanın da Avropanın və Amerikanın bəzi ölkələri kimi antisemit olması sualı açıq qalmaqdadır”, deyə yazan müəllif qeyd edir ki, hələlik, Azərbaycanla Ermənistan arasındakı sülh perspektivləri görünməz qalmaqdadır və ermənilər azərbaycanlılarla sülh və əmin-amanlıq içində yaşamağ öyrənmələri yerinə İkinci Qarabağ müharibəsindəki itkilərinə görə İsraildən günah keçisi düzəltməyə çalışırlar”, israilli jurnalist yazır.

*Rövşən RƏSULOV*

# YAP Gənclər Birliyinin növbəti iclası keçirilib



Dekabrın 22-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin VI iclası keçirilib. İclasda Gənclər Birliyinin 2021-ci il ərzində fəaliyyətinə dair hesabat müzakirə olunub. SİA-nın məlumatına görə, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxış edərək Birliyin 2021-ci ildəki fəaliyyətinin YAP Mərkəzi Aparatının tövsiyə və tapşırıqlarına uyğun şəkildə təşkil edildiyini deyib. Bildirib ki, ötən dövr ərzində gənclərin dövlətçilik ruhunda tərbiyəsi, şəxsi inkişaflarının dəstəklənməsi, milli dəyərlərimizin təbliği, o cümlədən Gənclər Birliyinin beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində vacib addımlar atılıb.

Daha sonra YAP Gənclər Birliyinin sədr müavinləri Sevinc Qasımova, Fəsli Nəbiyev və Gənclər Birliyinin üzvləri Azad Manaflı, Ülviyyə Axundova, Ülkər Həsənova, Əkbər Cəlilov, Fərid Sadıxlı, Nərgiz Babayeva, Nərmin Qocaman, Coşqun Hidayətov, Salman Salmanov, Emil Aslanlı, Nihad Allahyarlı, Niyaz Əliyev, Anastasiya Lavrina hesabat ətrafında fikir mübadiləsi aparıb, 2022-ci il üzrə fəaliyyət planının hazırlanmasına dair qərar qəbul ediblər.

# POLİTOLOQ: “Ermənilərin təxribatları sona yetəcək”



***"Brüssel görüşündən sonra erməni təxribatları dayandırılacaq. Bunun üçün müəyyən mühakimələr də söyləmək olar". Politoloq Qabil Hüseynli "Səs" qəzetinə açıqlamasında belə deyib.***

Onun sözlərinə görə, Ermənistan mətbuatı da yazır ki, indiyə qədər ermənilər tərəfindən sərhəddə yaranan lokal toqquşmalar və başqa təxribatların başında ”Qarabağ klanı” və ”Daşnaksütyun” partiyasının nümayəndələri dayanırdılar: ”Brüssel görüşündən sonra Nikol Paşinyanın Ermənistanda mövqeyinin xeyli möhkəmləndiyini söyləmək mümkündür. Üstəlik də, sözügedən ölkədə son bir necə gündə mitinq keçirməyə cəhd edən, bu və ya digər araqarışdırıcılıqla məşğul olan qüvvələrə qarşı ciddi polis təqibləri başlayıb. Demək olar ki, son bir ayda ölkədə nə Robert Köçəryan, nə də ki, Serj Sarkisyanın tərəfdarları hər hansı bir yürüş və mitinqlər keçirməyə müvəffəq ola bilməyiblər. Üstəlik də Serj Sarkisyan haqqında da istintaq prosesi sürətləndirilir, Robert Köçəryanla bağlı əvvəllər aparılmış istintaq məsələləri də davam etdirilməkdədir. Bir sözlə, Ermənistan müxalifəti ciddi məğlubiyyətlə üzləşib. Demək olar ki, artıq Paşinyan bütün proseslərə nəzarət etməyə başlayıb və beləliklə də onun əl qolu açılıb”.

Q.Hüseynli onu da bildirdi ki, Paşinyan tərəfindən son dövrlərdə dəmir yollarının açılması və Türkiyə ilə bağlı münasibətlərin inkişaf etdirilməsi, eləcə də Azərbaycanla sülh müqaviləsinin bağlanmasına dair fikirləri əlbəttə ki, konstruktiv səslənir: ”Üstəlik ilin sonuna qədər də ola bilsin ki, Moskvada geniş tərkibli nümayəndə heyəti ilə iki dövlət arasında sülh məsələsinə, sərhədlərin delimitasiyası, dəmir yolu və şose yollarının açılmasına dair qəti addımlar atıla bilər. Əgər bu görüş Moskvada keçirilsə Azərbaycan tərəfi orda tərəflərin bir-birinin ərazi bütövlüyünü tanımaq barədə məsələni də qaldıra və zənnimcə bu məsələlər də müsbət həll oluna bilər. Burada Rusiyanın özü də tələsir. Rusiya görür ki, onun təsir zonasına Qərb dövlətləri sürətlə daxil olmağa çalışır və buna da nail olurlar. Ona görə də, Rusiya sülhyaratma prosesin və bölgədə münasibətlərin nizama salınmasını da ciddi nəzarət altına götürüb. Bunun müəyyən siqnalları da Rusiya mətbuatında artıq verilməkdədir. Ümumiyyətlə, sülhyaratma yolunda əngəllərin yaradılması prosesinə Ermənistan tərəfindən nəzarət artırılır, Rusiyada bu proseslərə özünün müəyyən töhfələrini ola bilsin ki, versin. Bütövlükdə sərhəd toqquşmalarına, ermənilərin müxtəlif təxribatlarının sona yetəcəyini, ən azından məhdudlaşacağını söyləyə bilərəm”.

*Gülyanə*

# Kazino müzakirələri: Azərbaycana xas olan məsələdirmi?



*Milli Məclisdə "Turizm haqqında" Qanunun müzakirəsindən sonra, ölkəyə turist cəlb etmək üçün müxtəlif deputatların fikirləri ictimai rəydə aktual diskussiyalara səbəb olmaqdadır. Xüsusilə, Bütöv Azərbaycan Xalq Cəbhəsi Pariyasının (BAXCP) sədri, deputat Qüdrət Həsənquliyevin azad edilmiş torpaqlarımızda və s. yerlərdə kazinoların, yəni qumarxanaların açılması ilə bağlı irəli sürdüyü təklifi birmənalı qarşılanmadı, istər parlamentdə, istərsə də ictimai müzakirələrdə bu fikirə qarşı çıxanlar çoxluq təşkil etdi.*




*Qumarxanaların fəaliyyəti nə milli inkişafımıza, nə milli dəyərlərimizə, nə də milli kimliyimizə qətiyyən səmərəli töhfələrini verə bilməz*

Bu arada onu da xatırlatmaq yerinə düşərdi ki, Azərbaycanda, istər Qarabağda, istər Zəngəzurda, istərsə də digər bölgələrimizdə kazinoların yenidən açılması təklifləri və bu kimi "ideyaların" gündəmə gətirilməsi təqdirəlayiq hesab edilə bilməz. Halbuki, bir vaxtlar Azərbaycanda da açıq və qapalı kazinolar fəaliyyət göstərirdi...

### Kimsə istəməz ki, yetkinlik yaşına çatmış övladı, yaxını ailəsi üçün qazandığı vəsaitlərini qumarda uduzsun

Lakin Ulu Öndər Heydər Əliyevin Prezidentliyi dövründə həmin kazinoların fəaliyyətinə birmənalı olaraq qadağa qoyuldu. Beləliklə, bu kimi məsələlərin yenidən gündəmə gətirilməsinə birdəfəlik son verildi, yəni məqsədəuyğun hesab olunmadı. Söz yox ki, bunun da bir sıra milli, mənəvi və ictimai maraqlara zidd olan səbəbləri də var idi:

Birincisi, Azərbaycan əhalisinin mütləq əksəriyyəti kazino faktorunu qəbul etmir və kimsə istəməz ki, yetkinlik yaşına çatmış övladı, yaxını ailəsi üçün qazandığı vəsaitlərini qumarda uduzsun.

İkincisi, kazionlarda vəsaitlərini uduzan onları geri qazanması üçün bütün cinayətlərə gedə bilər və belə məsələlərin görünməyən tərəfləri də var.

Üçüncüsü isə, bu kimi hallar bizim mentalitetimizə, milli kimliyimiz, ümumiyyətlə, uyğun deyil!

### Azərbaycanda kazinoların fəaliyyətinə 90-cı illərin sonundan qadağa qoyulub

Digər tərəfdən, zaman-zaman kazinoların bərpasını təklif edən şəxslər tez-tez qonşu Gürcüstandan nümunə çəkirlər. Amma unudurlar ki, bir neçə il əvvəl orada da 21 yaşa qədər olan şəxslərin kazinolardan istifadəsini qadağan edən qanun qəbul edilib. Halbuki, Azərbaycanda bu qərar hələ 90-cı illərin sonunda, yuxarıda da xatırlatdığımız kimi, Heydər Əliyevin Prezident olduğu vaxt qəbul edilmişdi.

Bəli, mümkündür ki, kazinoların fəaliyyətindən dövlət xeyli vəsait qazansın, hətta bu fəaliyyət turizmə də müsbət təsirlərini göstərsin, amma qumar borcuna və daha dəhşətli nəticələrə səbəb olan kazinolu ölkələrdə digər dəyərləri də ayaqlayan arzuolunmaz halların (fahişəliyin leqallaşdırılması, bunun üçün xüsusi müəssisələrin fəaliyyəti və s.) yaşandığını dəfələrlə müşahidə etmişik və edirik də. Daha doğrusu, hər hansı səmərəli gəlir məsələsindən danışarkən, onun milli-ideoloji və mənəvi tərəfini də nəzərə almaq lazımdır.

Əgər biz - Azərbaycan xalqı milləti düzgün istiqamətdə, düzgün yolda irəliləməyə dəvət ediriksə, o zaman məsələnin milli-ideoloji tərəfini unutmamalıyıq, əks halda bu günün kazinosunda, katalizatorlarında oynanılan qumarlar sabah-birigün qarşısıalınmaz problemlərin də yaranmasına səbəb ola bilər.

### Ölkəmizdə kazino-qumar oyunlarına qadağalar tətbiq olunsa da, bir sıra mərc oyunları sistemi rahat şəkildə fəaliyyət göstərir

Vaxtilə qardaş Türkiyədə də böyük kazino mərkəzləri fəaliyyət göstərirdi, amma sonradan onların fəaliyyətlərinin ideoloji sistemə nə qədər zərər vurması nəzərə alındı və fəaliyyətlərinə qadağa qoyuldu. Adi bir sual edək: Türkiyə kimi dövlət özü-öz səmərəsini, büdcəsinə axan maliyyə vəsaitlərini baltalaya bilərmi? Əlbəttə ki, əsla. Deməli ki, kazinoların fəaliyyətinin qadağa olunmasının kökündə, təməlində milli kimliyin mühafizəsi, eyni zamanda, onun dini və mənəvi cəhətdən də yolverilməzliyi diqqətə alınıb. Eləcə də Azərbaycanda bu və ya bu kimi digər faktorlar xalqımızın milli-mənəvi maraqlarına cavab vermədiyi üçün zamanında kazinoların işləməsinə dövlət tərəfindən qadağalar tətbiq olundu.

Biz burada daha bir misal göstərə bilərik - ölkəmizdə kazino-qumar oyunlarına qadağalar tətbiq olunsa da, bir sıra mərc oyunları sistemi rahat şəkildə fəaliyyət göstərir. Ancaq fakt budur ki, adi mərc oyunlarında da arzuolunmaz hadisələr yaşanır, cinayətlər baş verir və bu, sadəcə, kiçik mərc oyunlarıdır, indi görün kazinoların fəaliyyətinə icazə verilərsə hansı hadisələr yaşana bilər (?!).

### Hətta Qərb ölkələrində kazinoların fəaliyyətinə son qoyulması üçün tələblər səsləndirilir

O da sirr deyil ki, yalnız müsəlman ölkələrində deyil, eləcə də bir sıra Qərb ölkələrində kazinoların fəaliyyətinə qarşı etirazlar səslənir, bu kimi qumarxana müəssisələrinin bağlanması tələbləri irəli sürülür. Bu tələblərin əsasında da dayanan əsas məsələ gələcək nəsillərin qumara aludəçiliklərinin qarşısını almaq məqsədi daşımaqdadır. Çünki onlar da dərk edirlər ki, qumarın əsla yaxşı nəticələri olmur və insanları bataqlığa doğru sürükləyir.

### Azərbaycanın inkişafı və tərəqqisi üçün daha münbit ideyalar mövcuddur

Beləliklə, daha yaxşı olardı ki, kazinoların fəaliyyətinə bundan sonra da icazə verilməsin və zamanında Heydər Əliyev tərəfindən qoyulan qadağa öz qüvvəsində qalsın, çünki Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, qeyrətli oğullarımızın döyüş meydanlarındakı şücaətləri sayəsində 44 günlük Vətən müharibəsindən Zəfərlə çıxmış Azərbaycanın inkişafı və tərəqqisi üçün qarşıda daha münbit və daha çevik planları mövcuddur və kazinoların fəaliyyətinin tələb, ya da təklif olunması, ümumiyyətlə, nə milli inkişafımıza, nə milli dəyərlərimizə, nə də milli kimliyimizə qətiyyən səmərəli töhfələrini verə bilməz.

***Rövşən RƏSULOV***

REPLİKA+AKTUAL

# FATEH SƏRKƏRDƏ

## İlham Əliyevin fəlsəfəsi - BİR PORTRET HAQQINDA DÜŞÜNCƏLƏR

*"Resurs" Analitik İnformasiya Mərkəzi İctimai Birliyi tərəfindən hazırlanmış "FATEH SƏRKƏRDƏ - İlham Əliyevin fəlsəfəsi - BİR PORTRET HAQQINDA DÜŞÜNCƏLƏR" adlı məqalənin aktuallığını nəzərə alıb onu əlavələrlə yenidən dərc edirik.*

24 dekabr 1961-ci il - doğulduğu il və bürcün bu tarixdə dünyaya gələnlərdə təbiətin - hansı ki, ətrafımızda tamamən yerdən və göydən ulduzların düzülüşü, torpaq, su, hava və energetik harmoniyanın təbiətən bəxş etdiyi xarakterik xüsusiyyətlər insanların həyat yolunda-talehində və şəxsi fəaliyyətində daim onu müşayiət edir. Çünki həmin tarix - il, ay, gün, saat, an onun bu dünyaya keçid kodudur. Həmin an təbiətin kosmik, energetik və bütün digər canlı təbii durumu insana nəsnələr verir və genetik keyfiyyətlərlə həmin günün təsirli əlamətləri insanın həyat portretinin ilk rənglərini yaradır. **BU GÜN ŞƏXSİ GÜNDÜR.**

### ŞUŞANI İŞĞALDAN AZAD EDƏN SƏRKƏRDƏ "MƏN ONA ÖZÜM QƏDƏR İNANIRAM" DEYƏN ULU ÖNDƏRİN ATA VƏSİYYƏTİNİ YERİNƏ YETİRDİ

XXI əsrin ən qanlı müharibəsinin ən qısa zamanda qalibi olan Azərbaycan dövlətinin, Azərbaycan xalqının və Milli Ordumuzun bir yumruq kimi birləşib müdrik sərkərdənin rəhbərliyi ilə göstərdiyi şücaət, qəhrəmanlıq haqqında hələ araşdırmalar davam edəcək. Hələ bu qələbənin nəticələrininin bugün görünməyən tərəfləri zamanla regional və qlobal siyasi və geosiyasi proseslərdə yerinə oturduqca, Azərbaycan tarixində və gələcək inkişafında, Türk dünyasının inteqrasiyasında siyasi, geosiyasi, mənəvi və psixoloji rolu və təsiri müxtəlif aspektlərdən təhlil olunub araşdırıldıqca Azərbaycan Prezidentinin siyasi, hərbi və diplomatik ardıcıl məqsədli strateji konseptual fəaliyyəti akademik səviyyədə analiz olunacaqdır.

Ərazisinin bir hissəsi - 20%-i işğal altına düşmüş, xalqının vətəndaşlarının təxminən 12-13%-i qaçqın və məcburi köçkün vəziyyətinə düçar olmuş, dövlətçiliyi, müstəqilliyi itirilmək təhlükəsi ilə üz-üzə, iqtisadiyyatı dağılmış və iqtisadi potensialı, nizami ordusu olmayan Azərbaycanı dünyada siyasi nüfuza sahib, müzəffər güclü orduya, funksional, stabil inkişaf edən kifayət qədər iqtisadi potensiala, regional və qlobal söz sahibi olan müstəqil, qüdrətli, qalib dövlətə çevirmək sözsüz ki, ardıcıl strateji və düşünülmüş siyasətin nəticəsidir. Ölkəmiz bugünki dünya gücləri arasında müstəqil siyasət yürütmək və seçim etmək, hətta yeni geosiyasi vəziyyət yaratmaq, Türkiyə, Qərb dövlətləri, Asiya və regional dövlətlərdə əməkdaşlıq, tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin strategiyasının dəqiq perspektiv plan üzrə inkişaf mərhələlərindən keçmiş və bu proses davam etməkdədir.



Cəmi 44 gün ərzində dünyanı heyrətə gətirən döyüş taktikası və texnikasının əsasında güclü və dayanıqlı iqtisadiyyatın nəticəsində əldə olunmuş yüksək texnoloji və intellektual hərbi potensiala malik vətənpərvər nizami milli ordunun yaradılması üçün xalqın sevgi, inam və birmənalı dəstəyini qazanmış lider amili çox vacib şərtlərdəndir. Ali Baş Komandan Prezident İlham Əliyev siyasi fəaliyyətində və karyerasında dürüst, xalqa açıq siyasət yürütdüyü üçün təkcə Azərbaycan xalqı arasında, cəmiyyətdə deyil beynəxalq ictimai rəydə də nüfuz qazanmış, öz dəsti-xəttini yazmışdır. Məhz erməni əsgər analarının bütün dünyanın gözü qarşısında Prezident İlham Əliyevə müraciət etməsi özü çox böyük mənəvi-psixoloji faktordur.

"Resurs" Analitik İnformasiya Mərkəzi olaraq müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı Azərbaycan Prezidenti İlham Əliyevin siyasi portretini keçən ad günü hədiyyəsi kimi ictimaiyyətə təqdim etmişdik. Bu ad günündə isə Fateh Sərkərdə İlham Əliyev Şuşanı və digər torpaqlarımızı **İŞĞALDAN AZAD EDƏRƏK XALQA HƏDIYYƏ ETDI** - doğma vətən torpaqlarımızın azad olunmasını arzulayıb görə bilməyən azərbaycanlıların, vətən müharibəsində canından keçən bütün şəhidlərimizin ruhuna, bugünki və gələcək nəsillərə Fateh Sərkərdə İlham Əliyevin layiqli hədiyyəsi oldu.

24 dekabr 1961-ci il - doğulduğu il və bürcün bu tarixdə dünyaya gələnlərdə təbiətin - hansı ki, ətrafımızda tamamən yerdən və göydən ulduzların düzülüşü, torpaq, su, hava və energetik harmoniyanın təbiətən bəxş etdiyi xarakterik xüsusiyyətlər insanların həyat yolunda-talehində və şəxsi fəaliyyətində daim onu müşayiət edir. Çünki həmin tarix - il, ay, gün, saat, an onun bu dünyaya keçid kodudur. Həmin an təbiətin kosmik, energetik və bütün digər canlı təbii durumu insana nəsnələr verir və genetik keyfiyyətlərlə həmin günün təsirli əlamətləri insanın həyat portretinin ilk rənglərini yaradır. **BU GÜN ŞƏXSİ GÜNDÜR.**

Bu il gücü və zəhmətsevərliyi təmsil edir, irəliləməyə söz verir. Həmin ildə doğulanlar böyük səbirə malik, az danışan, ətrafındakı insanları səmimiliyə çağıran, öz işinin fanatlarıdır. Qapalı adam olsalar da hərdən gözəl natiqlik edirlər. Əldən zirək olduqlarına görə evi həmişə səliqəli qurulmuş olsa da tərsdirlər və uğursuzluğu xoşlamırlar. İşlərini görməyə mane olanları vurub yolundan atırlar. Həmin il torpaq ünsürlü oğlaq bürcü altında doğulanlar sözünün üstündə duran, qarşıya çıxan çətinliklərin çəkinmədən öhdəsindən gəlməyi bacaran, həyata real baxan, komfortu sevən, əliaçıq, səxavətli olsalar da pulun dəyərini bilən, onu harada necə xərcləməyi bacaran insanlardı. Onlarla ciddi mövzularda, fəlsəfi və ya maliyyə xəbərləri barədə söhbət etmək, onların gözəl yaddaşına və iti ağlına baxıb zövq almaq olar. İşgüzar oğlaqlarla birlikdə işləmək bir fərəhdir.

Vətənpərvərlik, patriotizm, yüksək ziyalılıq keyfiyyətləri ilə əhatə olunan məhəbbətdən doğulub, sevimli övlad kimi diqqət, qayğı, mərhəmət-sevgi, yüksək təlim-tərbiyə və təhsil mühitində böyüyüb formalaşmışdır.

Valideynlərini daim insanların, müraciət edənlərin, ehtiyacı olanların köməyinə tələsdiyini görən övladın, bu hal sözsüz ki, xarakter və xüsusiyyətinə öz ciddi təsirini buraxmamış deyil. Vicdanlı, ləyaqətli, vətənpərvər, qorxubilməz, cəsarətli, ağıllı fenomenal şəxsiyyət Heydər Əliyevin zəhmətkeş, sədaqətli, qayğıkeş, ziyalı Zərifə xanımın ailəsində, bu izdivacdaan dünyaya gələn İlham Əliyev sanki zamanı qabaqlayaraq böyümüşdür.

Gənc prezident İlham Əliyevin 42 yaşında dünyanın ən mürəkkəb geosiyasi regionunda və 2003-cü ildə hələ sabitliyin, inkişafın qarantına çevrilmiş bir çox meqalayihələrin işə düşmədiyi, risk faizinin çox yüksək olduğu Azərbaycana rəhbərliyə seçilməsi və bütün məsuliyyəti öz üzərinə götürməsi nümunəsi təkcə talehin nəsibi deyil, şəxsiyyətin xarakter göstəricisidir. Heydər Əliyev və Zərifə xanımın ailəsində böyümək ən böyük həyat və siyasət akademiyasını keçmək deməkdir. Lakin onun portretinin zəngin cizgi və rəng çalarları keçdiyi həyat yolunda daha dolğun mükəmməl mərhələsini keçərək öz kamil formasını almışdır.

İlham Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur. 1967-1977-ci illərdə Bakı şəhərindəki 6 saylı orta məktəbdə təhsil almışdır. 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna daxil olmuşdur. Oranı bitirdikdən sonra institutun aspiranturasına qəbul edilmiş, 1985-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır. 1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda müəllim işləmişdir.1991-1994-cü illərdə özəl biznes sahəsində çalışmışdır. Bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, birinci vitse-prezidenti olmuşdur. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir. Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.

1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam vermişdir. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir. 1999-cü ildə Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir. 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur. 2003-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir. 2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideallarına sədaqətinə görə AŞPA-nın fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir. 2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir. 2003-cü il 15 oktyabrda Azərbaycan Republikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs vermişdir. 2003-cü il oktyabrın 31-də vəzifəsinin icrasına başlamışdır. 2008-ci ildə yenidən prezident seçilmişdir. 2013-cü ildə üçüncü müddətə prezident seçilmişdir. .2018-ci ildə səslərin 86.03% -ni toplayaraq dördüncü müddətə Azərbaycan Respublikasının prezidenti seçilmiş və hazırda prezident vəzifəsini icra edir. **O, KEÇDİYİ HƏYAT YOLUNDA BÜTÜN DÖVRLƏRDƏ ZAMANIN ÖNÜNDƏ OLMUŞDUR.**

Keçən əsrdə yaşamış Hind yoqa təlimçisi və filosofu Oshonun (Bhagwan Shree Rajneesh) belə bir fikri var ki, hər hansı nəticənin necəliyini dəyərləndirmək elmi yanaşmadır, səbəbini, yəni mövcud faktın niyəsini incələmək isə fəlsəfi yanaşmadır. Yəni fəlsəfədə sual edilir: "Bu niyə mövcuddur?". Elm isə belə sual verir: "Bu necə mövcuddur?".

***Ardı Səh. 8***

# FATEH SƏRKƏRDƏ

## İlham Əliyevin fəlsəfəsi - BİR PORTRET HAQQINDA DÜŞÜNCƏLƏR

Əvvəli-Səh-7




### İLHAM ƏLİYEVİN SİYASİ PORTRET CİZGİLƏRİ SİYASİ PORTRETDƏN ŞTRİXLƏR

**Yaxud regionun inkişaf və sabitliyində İlham Əliyev xarizmasının rolu**

İlham Əliyevin doğulub, böyüyüb, təlim-tərbiyə aldığı, şəxsiyyət kimi formalaşmasında müstəsna rol oynayan ailə mühiti, təhsili və eyni zamanda sağlam və geniş dünya görüşünün kamilləşməsində Ulu Öndərin genetik kodunun daşıyıcısı olmaqla bahəm, onun siyasi məktəbinin yetirməsi, yaxud da Heydər Əliyev siyasətinin ən yaxın izləyicisi və müşahidəçisi olması faktı siyasi portret cizgisində xüsusi iz buraxmış ştrixlərdəndir.

Hətta Heydər Əliyevin həyatının rəvan olmadığı dövrlərdə istər-istəməz böyük təzyiqi öz üzərində hiss edən oğul Əiyevin siyasi portret cizgilərində iz buraxan bu təzyiqlərə sinə gərmək qətiyyəti İlham Əliyevin xarakterik xüsusiyyətlərində öz əksini tapmışdır.

Mətinlik, əzmkarlıq, dözüm və iradə, Onun siyasi porterindəki xüsusi ştrix və yaxud ən böyük cizgi-səbrlə, təmkinlə Qalib Gəlmək əzmi və qəti iradə nümayişidir. O, başladığı istənilən layihədə öz qalibiyyətinə, uğurlu nəticəyə böyük inamla əmindir ki, bu da onun xarizmasını şərtləndirən ən vacib keyfiyyətlərdəndir.

İrsi xüsusiyyət və fitri istedadı, eyni zamanda təlim-tərbiyə, təhsili və keçdiyi heç də rəvan olmayan həyat yolu və böyük siyasi təcrübəsinin Onun siyasi portretində dərin iz buraxmış xarakterik xüsusiyyətlərinin formalaşmasına ciddi təsir göstərdiyi daha aydın görünür.

Azərbaycan tarixinin ən ciddi, həyati əhəmiyyətli, dönüş məqamı və dönüş mərhələsinin yaşandığı bir dövrdə bu qədim xalqa rəhbərlik, sərkərdəlik etmək missiyası nəsib olmuş İlham Əliyevin geniş analitik təfəkkürü-dərin zəkanın, formalaşdığı və yaşadığı zaman-dövran və mühitin, keçdiyi burulğanlarla zəngin olan siyasi-həyat təcrübəsinin məcmusudur. Onun keçmiş və müasir liderlərdən bir fərqliliyi də, bəlkə də hardasa müəyyən energetik-mistik qanunauyğunluq da var ki, sanki Uca yaradan oğul Əliyevi xarakterik olaraq müasir Azərbaycan coğrafiyası üçün görəvləndirmişdir.

O, ən böyük azərbaycanlı kimi ölkənin geosiyasi, mədəni-mənəvi əksliklərin və müxtəlif sivilizasiyaların kəsişməsində yerləşdiyi üçün geniş tollerant dünya görüşü ifadə etməyi bacaran nadir siyasətçilərdəndir.

O, xarakterсə islahatçıdır, yenilikləri mənimsənilməsi və daha da modernləşdirilib tətbiq olunmasında daim təşəbbüskardır. Eyni zamanda, xüsusən milli-mənəvi, mədəni və əxlaqi, ənənəvi dəyərlərin qorunub saxlanılmasında mühafizəkardır və bu məsələlərdə konkret münasibət ifadə etməkdən çəkinmir.

Onda Şərqin uzaqgörən müdrikliyi, qərbin təmkinli, praqmatik soyuqqanlılığı, ancaq eyni zamanda qafqazlıların da mərdliyi və istiqanlılıq xüsusiyyətləri cəmləşmişdir. Azərbaycan liderinin 24.04.2014-cü ildə Praqada keçirilən dövlət və hökümət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitdə beynəlxalq tribunadan "Türkiyə burada yoxdur, biz burdayıq" deyə çıxış edərək Türkiyənin müdafiəsinə qalxması onun mərdliyi, ədaləti və qətiyyəti ifadə edən şəxsi keyfiyyətlərinin göstəricisi kimi xarakterizə olunur.

O, eyni zamanda əks qütblərdə, yaxud ziddiyyətli mövqelərdə dayanan qüvvələrlə açıq faydalı dialoq qurmaq istedadına malikdir. Çünki, O, dərin analitik təfəkkürlə hadisələrin və ya situasiyanın rassional analizini verərək, praqmatik yanaşma ilə müxtəlif mövqelərin proqressiv uzlaşma nöqtələrini tapmaq zəkasına və məntiqi yanaşma ilə inandırmaq bəlağətinə malikdir. O, vaxtilə yaşadığı Kreml mühitini də, yüksək təhsil və geniş dünyagörüşü ilə qərb dünyasını da əla tanıyır və dünyagörüşü baxımından həm moskvalıdır, həm avropalıdır, həm də asiyalıdır.

### NEFT XOŞBƏXTLİKDİRMİ?

Ərazisinin 20 %-nin işğal, əhalisinin 10%-nin məcburi köçkün halında yaşamaq məcburiyyətində qalma səbəbi müstəqilliyimizə təhdidlər fonunda Azərbaycan dövlətinin yerləşdiyi vacib strateji-geosiyasi mövqedə və neft ölkəsi olaraq tam müstəqil siyasət yürütməsi bügünki dünyanın möcüzələrindəndir. Azərbaycanın vəziyyətində olan və Azərbaycan böyüklüyündə ikinci bir ölkə yoxdur ki, müstəqil siyasət həyata keçirə bilə, həm də müsəlman ölkəsi olaraq.

"Əsrin müqaviləsi" neft kontraktlarının imzalanması böyük çətinliklərdən keçmiş, dövlət çevrilişlərinə cəhdlər, hətta sui-qəsd cəhdləri və nəhayət adı çəkilən layihənin fəaliyyətə başlaması və s. barədə mətbuatda, ictimaiyyətdə geniş məlumatlar olduğu üçün məsələyə daha çox basqa tərəfdən baxmağa çalışacağıq. Onu da yeri gəmişkən qeyd etməyi vacib hesab edirik ki, XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin 2006-cı il iyul ayının 13-də təntənəli açılış mərasimindən sonra Azərbaycan dövlətinin həyata keçirdiyi həm daxili, həm regional, sosial-iqtisadi, humanitar-mədəni layihələr baxımından, çevik, ardıcıl, sabit, sürətli və perspektiv nəticələrə hesablanmış konseptual siyasəti təhlil predmetidir.

Xəzərin Azərbaycan sektorunda neft və qaz ehtiyyatlarının istismarı ildən-ilə genişlənir və bunun nəticəsində Azərbaycan özünün enerji təhlükəsizliyini tam şəkildə təmin etmişdir. Dünyanın enerji təminatında ölkəmizin xüsusi çəkisi və strateji əhəmiyyəti daha da yüksəlir. Eyni zamanda, "Şahdəniz" yatağında qazın istismarının genişlənməsi ilə əlaqədar Azərbaycan özünün daxili tələbatını tam ödəməklə bərabər, bu mavi yanacaq növünün beynəlxalq bazarlara ixrac etmək imakınını əldə etmişdir. 2007-ci il iyul ayının 3-də Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" qazkondensat yatağından hasil edilən təbii qaz Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri ilə Türkəyinin qaz kəmərləri sisteminə daxil oldu. Qaz nəqliyyat infrastrukturunun, xüsusilə də Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin fəaliyyəti sayəsində Azərbaycan qərbin mühüm qaz ixracatçısına və qlobal enerji təhlükəsizliyinin təminatçılarından birinə çevrilmişdir. Neft strategiyasının mühüm tərkib hissəsini xarici şirkətlərlə birlikdə hasil olunan neftin və qazın iri həcmli nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edilmişdir. Belə ki, neft strategiyasının həyata keçirilməsinin ilk illərində ilk növbədə Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri yenidən quruldu. Yuxarıda qeyd olunan və mövcud olan layihələrin fəaliyyət göstərməsi və bu kəmərlər ilə neft və qazın nəqlinin ildən-ilə genişlənməsi neft strategiyasının mühüm qələbəsi kimi qəbul edilir. Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sayəsində Azərbaycan neftinin beynəlxalq bazarlara genişmiqyaslı nəqli və ölkədə çoxvariantlı ixrac strategiyasının həyata keçirilməsi üçün əlverişli imkan yarandı, eyni zamanda ölkənin tranzit potensialı bir neçə dəfə artdı. Dünya ölkələri xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhvələr vermişdir. 2012-ci ildə "Şahdəniz-2" layihəsi üzrə Trans-Anadolu qaz boru kəmərinin (TANAP) tikintisi ilə bağlı razılıq əldə edildi. Layihə çərçivəsində hasil olunacaq qazın uzunmüddətli satışlar əsasında Avropa İttifaqı ölkələrinə ixrac edilməsi üçün mühüm addımlar atıldı, Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) qaz boru kəmərlərinin inşaasına dair sazişlər imzalandı. 2018-ci ildə istismara verilən TANAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetr olaraq kəmərin bu qabiliyyətinin 2023-cü ildə 23 milyard kubmetrə və 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. 2013-cü ilin iyul ayının 28-də "Şahdəniz" konsersiumu "Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunacaq qazın Yunanıstan, İtaliya və Cənub Şərqi Avropadakı istehlakçılara çatdırılması üçün Trans-Adriatik qaz boru kəmərinin seçildiyini elan etdi. Uzunluğu 870 km olan və ilkin olaraq, 5.2 milyard ABŞ dolları məbləğində qiymətləndirilən TAP layihəsi Cənubi Qafqaz qaz kəmərinin (BTƏ) və Trans-Anadolu qaz kəmərinin davamıdır. Bu boru kəməri "Şahdəniz-2" yatağından çıxarılan qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizi ilə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. 2014-cü sentyabr ayının 20-də isə Bakıda "Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub" qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim keçirildi. Mərasimdən sonra təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilən "Cənub" Selim rayonunda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri TANAP-ın təməlini qoydular. TANAP Yunanıstan sərhədinədək uzanacaq. "Əsrin müqaviləsi" ilə əsası qoyulmuş milli neft strategiyasının uğurlarının nəticəsi olaraq, Azərbaycanın regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınmasına şərait yaranmışdır.

Regionun ümumi inkişafında hətta perspektiv planda orta Asiya regionuna daxil olan ölkələrin və avropanın enerji ixracı, enerji təminatı və enerji təhlükəsizliyi layihələrində birbaşa və bilavasitə təşəbbüskar və aparıcı rol oynayan Azərbaycan dövlətinin gücü artdıqca beynəlxalq nüfuzunun da yüksəldiyini müşahidə edirik ki, o da öz növbəsində müstəqilliyimizin dönməzliyini, dövlət siyasətinin yalnız milli maraqlar üzərində qurulmasını inamla möhkəmləndirir.

Keçən dövrün təhlili göstərir ki, Azərbaycan dövləti tərəfindən yaranmış əlverişli şəraitdə çox səmərəli ardıcıl kompleks tədbirlər həyata keçirib.

*Ardı Səh. 9*

Əvvəli-Səh-8

## YOLLAR MƏDƏNİYYƏTLƏRİ BİRLƏŞDİRİR

Prezident İlham Əliyev tərəfindən imzalanan və vaxtında istismara verilən həm beynəlxalq avtomagistralların, həm daxili avtomobil yollarının yüksək standarta uyğun şəkildə əsaslı təmiri və bir çox hallarda yeni avtomobil yollarının tikilib istismara qəbul edilməsi trayektoriyası və xronologiyası məsələnin planlı şəkildə hansı ardıcıllıqla həyata keçirildiyinin əyani göstəricisidir. Məsələn: Azərbaycan Prezidentinin 11 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" çərçivəsində Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi, Bakı-Şamaxı-Yevlax, Xocasən-Lökbatan-Yevlax-Gəncə, Gəncə-Qazax-Gürcüstan dövlət sərhədinədək avtomobil yolları yenidən qurulmuşdur. Bundan başqa, Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci, həmçinin 2008-2013-cü illər üçün tədbirlər planlarına müvafiq olaraq, paytaxtda 26 yol qovşağı, körpü və 88 piyada keçidi tikilmiş, paytaxtətrafı kənd və qəsəbələrin inkişafını nəzərdə tutan yolların yenidən qurulması işləri aparılmışdır.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının yol kompleksində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 28 dekabr 2015-ci il tarixli sərəncamı yol təssərüfatında yeni dövrün başlanması kimi xarakterizə olunmalıdır. Bu sərəncamın imzalandığı vaxtdan keçən qısa dövr ərzində 4.1 milyon nəfər əhalinin yaşadığı və 1318 yaşayış məntəqəsini birləşdirən uzunluğu 3438.2 km olan avtomobil yollarının tikintisi, yenidən qurulması və təmiri başa çatdırılmışdır. Ümumi istifadədə olan avtomobil yollarında və Bakı şəhərində 29 yeni körpü və 19 piyada keçidi tikilmişdir. Paytaxtda görülən işlərdən danışarkən, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçidin və müxtəlif səviyyəli yol qovşağının inşaasını da xüsusi vurğulamaq lazımdır.

Qeyd edilənlərlə bərabər, 2016-cı ildə Bakl-Şamaxı-Yevlax avtomobil yolunun Muğanlı-Yevlax mənzilinin 115 km hissəsi açılmış, Ələt-Astara-İran İslam Respublikası dövlət sərhədi avtomobil yolunun Yenikənd-Salyan rayonun ərazisindən keçən 23.4 km hissəsi istifadəyə verilmişdir. Çoxdan gözlənilən Kür çayı üzərində uzunluğu 201 m, eni 14.5 m olan yeni körpünün açılışı olmuşdur. Eyni zamanda, 87.8 km olan Bakı-Ələt-Qazax-Gürcüstan dövlət sərhədi avtomobil yolunun Kürdəmir-Ucar-Yevlax hissəsi istismaraburaxılmışdır.

Ötən il, eyni zamanda, "40 kənd yolu" layihəsinin icrası çərçivəsində mühüm işlər görülmüşdür. Regionların sosial-iqtisadi inkişafına mühüm təsir göstərən bu layihənin gerçəkləşdirilməsinin kənd yollarının tikintisinə və yenidən qurulmasına yönəldilməsi xüsusi əhəmiyyət kəsb etmişdir. Layihə çərçivəsində respublikanın 34 rayonunda 1 milyon 400 min nəfər əhalinin yaşadığı 423 yaşayış məntəqəsini birləşdirən 52 kəndlərarası və Bakı şəhərinin qəsəbələrarası avtomobil yolu layihəsi, həmçinin 14 respublika əhəmiyyətli layihənin icrası uğurla reallaşdırılmışdır. Yol infrastrukturunun inkişafına xüsusi diqqət ayıran Prezident İlham Əlyev demək olar ki, bütün yolların çəkilişində və istifadəyə verilməsində şəxsən iştirak etmişdir.



***Cənab Prezidentin təşəbbüsü ilə Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı olan Ələt dəniz ticarət limanının təməli 2007-ci ildə atılmış və 2017-ci ildə fəaliyyətə başlamışdır.***

Əsası 2004-cü ildə qoyulan bu layihələr əslində şimal-cənub və şərq-qərb tranzit nəqliyyat qovşağının perspektiv strateji inkişaf proqramının mühüm hissəsi kimi artıq böyük regional proyektin tərkib hissəsinə çevrilmişdir.

Eyni zamanda Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən şərq-qərb və şimal-cənub nəqliyyat dəhlizlərinun yaradılması istiqamətində böyük işlər görülmüşdür. Təməli 2007-ci ildə qoyulmuş, uzunluğu 826 km olan Bakl-Tbilisi-Qars dəmir yolunun 2017-ci il oktyabr ayının 30-da Bakıda rəsmi açılışı olmuşdur. Bununla yanaşı 20 aprel 2016-cı ildə şimal-cənub beynəlxalq nəqliyyat dəhlizinin genişlənməsi istiqamətində ikitərəfli müqavilə imzalanmışdır. Müqaviləyə əsasən, Azərbaycan tərəfi İran sərhəddində bir dəmir yol körpüsünün və uzunluğu 8.3 km olan (İran-Astara) birxətli dəmir yolu qovşağının tikintisini həyata keçirmişdir. Bununla da Azərbaycan siyasi-iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilmişdir.

Cənab Prezidentin təşəbbüsü ilə Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı olan Ələt dəniz ticarət limanının təməli 2007-ci ildə atılmış və 2017-ci ildə fəaliyyətə başlamışdır. Bununla paralel olaraq 2011-ci ilin mart ayında Heydər Əliyev Adına Beynəlxalq Aeroportun yenidən qurulması ilə bağlı Prezident İlham Əliyev sərəncam imzalamış, tikinti işləri sürətlə həyata keçirilərək 2014-cü ilin mart ayın 17-si yeni aeroportun inşaası başa çatmış və Bakının Heydər Əliyev Beynəlxalq hava limanı dünyanın "5 ulduz"lu 9 əsas hava limanı sırasına daxil olmuşdur. Həmçinin Azərbaycanda 7 aeroport tamamilə yenidən qurularaq istifadəyə verilmişdir ki, onlardan 6-sı (Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Qəbələ, Zaqatala) beynəlxalaq hava limanı statusu almışdır.

## DÜNYA AZƏRBAYCANI YENİ RAKURSDAN TANIYIR

Azərbaycan Respublikasının Avropa və Asiya qitələri arasında əlverişli geoiqtisadi, cografi, eləcə də informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi informasiya mübadiləsinin xarici ölkələrdən asılılığını, iqtisadi və informasiya təhlükəsizliyinin əsas komponentlərindən olan telekomunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılması Azərbaycanı regionda informasiyanın ötürülməsi sahəsində lider ölkəyə çevrilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda yüksək texnologiyaların tətbiq olunmasına və ölkədə kosmik sənayenin yaradılmasına təkan verilməsi məqsədilə, "Azərbaycan Respublikasında Kosmik sahənin yaradılması və Telekommunikasiya Peykərinin orbitə çıxarılması haqqında" Prezident İlham Əliyevin 2008-ci il 04 noyabr tarixli sərəncamında Kosmik Sənayenin yaradılması və inkişafına dair Dövlət Proqramının hazırlanması nəzərdə tutulur.

Dövlətin iqtisadi və hərbi gücünün inkişafı zərurəti kosmik tədqiqatlar sahəsində fundamental elmi biliklərin genişləndirilməsini tələb edir. Kosmik fəzanın fəth edilməsi iqtisadiyyatın və milli təhlükəsizliyin səviyyəsini müəyyənləşdirən amillərdəndir. Aerokosmik fəzada yerləşdirilmiş cihazlar və komplekslər öyrənilən obyektlər haqqında genişmiqyaslı və keyfiyyətcə yeni olan məlumatları operativ şəkildə əldə etməyi, aerokosmik laboratoriyalar isə komponentlərin, dünya okeanının, planetlərin və digər xüsusi obyektlərin öyrənilməsinə geniş imkanlar yaradır.

Prezident İlham Əliyev tərəfindən 15 fevral 2011-ci ildə xüsusi sərəncamla 2011-ci ili Turizm ili elan etdi və Azərbaycanın həm daxili avtomobil yollarının, beynəlxalq aeroportların eyni zamanda otelçilik və xidmət sahələrini əhatə edən yeni turizm infrastrukturunun əsası qoyuldu. Turizm infrastrukturunun yaradılması və eyni zamanda ölkəmizin tanıdılması xarici turistlərin cəlb olunması məqsədilə müxtəlif istiqamətlərdə işlər həyata keçirilmişdir ki, bu baxımdan Evroviziya 2012 mahnı müsabiqəsinin Bakıda keçirilməsi çox əlamətdar hadisə kimi qiymətləndirilir.

Dövlət başçısının xüsusi diqqət ayırdığı prioritet sahələrdən biri də cəmiyyətin sağlam inkişafını şərtləndirən insanlarda əzmkarlığı və iradəni formalaşdıran, fiziki sağlamlığı və sağlam rəqabəti stimullaşdırıb tərənnüm edən bədən tərbiyəsi və idman sahəsidir ki, Azərbaycan dövlətinin bu sahədə sistemli olaraq həyata keçirdiyi layihələr paketi nəticəsində ölkədə idman və bədən tərbiyəsi sürətli inkişaf prosesi keçmiş, böyük uğurlar əldə edilmişdir. Bakıda və bölgələrdə 43 Olimpiya İdman Kompleksi, xeyli sayda idman qurğuları, stadionlar və digər idman meydançaları tikilib istifadəyə verilmiş, mövcud idman obyektləri yenidən qurulmuşdur. Azərbaycan idmançıları ildən ilə öz nəticələrini yaxşılaşdırır, yüksək nailiyyətlər əldə edirlər. İdmançılarımız 2004-cü il Afina Olimpiadasında 5 medal (1 qizil, 4 bürünc), 2008-ci il Pekin Olimpiadasinda 6 medal (1 qizil, 1 gümüş və 4 bürünc), 2012-ci il London Olimpiadasinda 10 medal (2 qizil,2 gümüş,6 bürünc), 2016-cı il Rio-de-Janeyro Olimpiya oyunlarinda isə 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanmışlar. Sonuncu Olimpiya oyunlarında qazanılmış medalların sayına görə Azərbaycan dünyada 14-cü, Avropada 7-ci, MDB ölkələri arasında 2-ci müsəlman aləmində isə 1-ci olmuşdur.

2015-ci ildə Azərbaycan tarixində ilk dəfə keçirilən Avropa oyunlarına ev sahibliyi etmişdir. 50 ölkəni təmsil edən 6000 idmançının iştirak etdiyi oyunlarda ümumi hesabda 2-ci yer tutmuşdur, 21-i qızıl olmaqla 56 medal qazanmışdır. 2017-ci ilin mayında Bakıda keçirilmiş IV İslam Həmrəylik oyunlarında isə Azərbaycan komanda hesabında 1-ci yerə çıxmışdır. 2016-cı ildən etibarən Bakıda hər il ümumi auditoriyası 500 milyon nəfərdən çox olan "Formula 1" yarışları təşkil edilir.

## AQRAR İSLAHATLAR

Cənab Prezidentin aqrar sektorda da keçirdiyi islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçılarına edilən güzəşt və yardımlar ölkə iqtisadiyyatında bu sahənin ardıcıl inkişafına zəmin yaradılması məqsədilə 2003-2008-ci illərdə meliorasiya tədbirlərinin həyata keçirilməsi üçün bir sıra imzaladığı sərəncamlarını qeyd etmək zəruridir. Ölkədə iri su anbarları, 4 min kilometrlik suvarma kanalları, 2,4 min kilometr kollektor-drenaj şəbəkələri tikilmiş və bərpa olunmuş, 360 min hektar torpağın su təminatı və digər meliorativ tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 19.12.2019-cu il tarixdə fərman imzalamışdır ki, bu fərmanla da ölkədə kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika ilə təminatının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüş, kənd təsərrüfatı istehsal vasitələri bazarında rəqabətyönlü fəaliyyətin təmin edilməsi, fermerlərə güzəştli şərtlərlə aqrotexniki xidmətlər istiqamətində mühüm işlər görülmüş, fermerlərə güzəştli şərtlərlə aqrotexniki xidmətlər göstərilməsi, həmçinin heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması üçün tədbirlər həyata keçirilməsi nəzərdə tutulmuşdur.

## REGİONDA AZƏRBAYCAN FAKTORU

Əlbəttə, bütün bu layihələrin həyata keçirilməsi və uğurlu nəticəsi Prezident İlham Əliyevin cəsarətli, çevik, uzaqgörən praqmatik siyasət yürütmək bacarığı və uğurlu qələbə əzmi, iradə və qətiyyəti ehtiva edən şəxsi keyfiyyətlərinin təzahürü inikasıdır ki, bu da təkcə Azərbaycan xalqının bugünü və gələcəyinin deyil, regionun ümumi inkişafını şərtləndirən perspektiv plan üzərində qurulmuş siyasətinin nəticəsidir.

Ardı Səh. 10

# FATEH SƏRKƏRDƏ

## İlham Əliyevin fəlsəfəsi - BİR PORTRET HAQQINDA DÜŞÜNCƏLƏR



Əvvəli-Səh-9

Azərbaycan dövlətinin və şəxsən İlham Əliyevin, liderliyi ilə, yaşadığımız əsrin əvvəlində regionda həyata keçirilən regional və beynəlxalq layihələr və meqalayihələr hazırda və perspektiv planda böyük bir regionun təhlükəsiz, inteqrativ iqtisadi inkişafını sürətləndirməklə bərabər Azərbaycanın beynəlxalq siyasi çəkisini artırır. Sözsüz ki, dövlətin və ölkənin iqtisadi gücü, siyasi çəkisi və nüfuzu yüksəldikcə hərbi qüdrəti də durmadan inkişaf edərək, həm şəxsi heyətin fiziki, mənəvi-psixoloji, həm peşəkarlıq səviyyəsi, həm də ən müasir texniki və hərbi təhcizatı daim inkişaf edərək ən yüksək həddə saxlanılır. Bir faktı qeyd etməklə bu sahənin necə dinamik, çevik və hazırlıqlı olduğuna diqqət çəkmək olar ki, 2018-ci il ərzində müxtəlif vaxtlarda iki dəfə hərbi parad keçirilmişdir.

Neft xoşbəxtlikdirmi sualına yenidən döndükdə, düzgün yürüdülməyən neft siyasətinin Holland sindromuna və yaxud müasir dünyada Venesuela nümunəsinə tarix şahidlik edir. Bu gün istər Afrikada, Asiyada demək olar ki, bütün neft ölkələri müxtəlif təzyiqlər altında inləyirlər. Azərbaycanda isə neft kapitalının qeyri-neft sektorunun inkişafına transmissiyası prosesi çox uğurla həyata keçirilməklə yanaşı, eyni zamanda paralel olaraq neft kapitalının insan kapitalına çevrilməsi prosesi də diqqətlə həyata keçirilir.

### AZƏRBAYCAN DÖVLƏTİNİN ƏN QİYMƏTLİ SƏRVƏTİ ONUN VƏTƏNDAŞIDIR

Həyata keçirilən bir çox sosial layihələr və bu sahəyə davamlı dövlət investisiya yatırımları vətəndaşların sosial şəraitinin yüksəldilməsi, yaşam tərzinin yaxşılaşdırılması ilə yanaşı, cəmiyyətin mədəni-intellektual səviyyəsinin daha da inkişafına hesablanmış konseptual dövlət siyasətidir.

Bu baxımdan Prezident İlham Əliyevin Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının təsdiqlənməsi barədə 2013-cü il 24 oktyabr tarixli Sərəncanı böyük əhəmiyyətə malikdir. Sərəncamda dövlətimizin inkişaf konsepsiyasına uyğun olaraq, strategiyamızda davamlı, dayanıqlı və rəqabət qabiliyyətli inkişafı təmin edən, insan kapitalının inkişafına önəm verən, insan resurslarının yetişdirilməsini və idarəedilməsini gerçəkləşdirən müasir təhsil sisteminin yaradılması ön plana çəkilir. Eyni zamanda, bu konseptual sənəddə ölkəmizdə beynəlxalq standartlara cavab verən təhsil sisteminin inkişaf istiqamətləri, başlıca hədəfləri dəqiq müəyyənləşdirib, təhsil işçiləri qarşısında yeni, məsul vəzifələr qoyulub. Prezident İlham Əliyev bu məsələyə böyük önəm verərək qeyd edir: "Əlbəttə, qarşımızda duran bütün vəzifələri gerçəkləşdirməyə nail olmaq üçün bizə ilk növbədə, peşəkarlar lazımdır. Bütün sahələrdə peşəkarlar lazımdır. Hansısa mühüm bir istiqamətə peşəkar kadr gələn kimi, biz o saat müsbət dinamika görürük. Müasir dünyada ölkənin uğurunu biliklər, elm, texnologiyalar və təhsil müəyyən edir...".

Lideri xalqa sevdirən ən vacib və üstün keyfiyyətlərindən biri şəxsiyyətin insanlar, cəmiyyət və xalqın qarşısında sözü ilə əməlinin vəhdətin nümayiş etdirməsidir. Bu baxımdan xalqın seçdiyi lider bütün digər xarizmatik keyfiyyətləri ilə bərabər xalq qarşısında verdiyi söz və götürdüyü öhdəliklərə sədaqəti ilə özünün ən yüksək insani keyfiyyət olan sadiqlik və sədaqət, həqiqət və ədalət xarakterik xüsusiyyətlərini nümayiş etdirir.

Yeri gəlmişkən Azərbaycanlı gənclərin xaricdə təhsil alması ilə əlaqədar gənclərimizlə görüşdə Belarus Prezidenti Aleksandr Lukaşenko bildirib: "Əgər biz gənclərə və təhsilə böyük diqqət ayırmasaydıq, bu, mümkün olmazdı. Mən həmişə deyirəm ki, İlham Heydər oğlu bizim aramızda ən ziyalı və savadlı Prezidentdir və o bu məsələyə böyük diqqət yetirir. Görünür, bu səbəbdən o, dünyada normal təhsil olan yerlərə Azərbaycan gənclərini göndərməyə çalışır. Gənclər də əlbəttə, yeni texnologiyaları buraya, öz vətənlərinə gətirəcəklər, onlar yüksək bilikli adamlar olacaqlar. Bu gün bizdə 150 azərbaycanlı tələbə təhsil alır. Onlar bizim üçün heç bir problem yaratmırlar. Ağıllı, sakit gənclərdir, normal təhsil almağa çalışırlar. Bax, bu mütəxəssislər hər il Azərbaycanın iqtisadiyyatına cəlb edilir və sanballı nəticə verirlər. Bunlar olmasa, təhsil olmasa - bilirəm ki, texniki peşə təhsili üzrə də yeni layihələr vardır - normal əməkdaşlıq mümkün deyildir".

### O, XALQLA HƏMİŞƏ AÇIQ, SƏMİMİ TƏMAS QURMAĞI BACARIR VƏ BU, BİR ÇOX LİDERİN ƏN BÖYÜK ARZUSUDUR DESƏK YANILMARIQ

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası İlham Əliyevin ölkənin gələcək inkşafı məqsədilə göstərdiyi əsas strateji təşəbbüslərdən biri kimi qəbul olunur. Bu konsepsiyanın hazırlanması barədə müvafiq Sərəncam 29 noyabr 2011-ci ildə qəbul olundu və 29 dekabr 2012-ci ildə isə qəbul olunmuş Fərmanla konsepsiya təstiq olundu. Konsepsiya 2020-ci ilə qədər iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı və ictimai rifahın artırılması üçün tədbirlər və fəaliyyətlər nəzərdə tutur. BMT-nin Dayanıqlı İnkşaf Məqsədlərinin tətbiqi haqqında Azərbaycanın könüllü məruzəsinin qiymətləndirilməsində İlham Əliyev tərəfindən təstiqlənmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası uzunmüddətli milli istəkləri, sərmayəçilər üçün imkanları və bu məqsədlər barəsində əsas məsələləri əks etdirən strategiya kimi təsvir olunmuşdur. Eyni yanaşma 2015-ci il Dünya İqtisadi Forumu üçün hazırlanmış və Xarici Siyasət jurnalında nəşr olunmuş Məruzədə də qeyd olunmuşdur. İqtisadi sahədə ixtisaslaşmış "The Business Year" jurnalı İlham Əliyev tərəfindən təşəbbüs edilən konsepsiyanı Azərbaycanın milli iqtisadi maraqlarını qorumaq məqsədilə hazırlanmış ağıllı strategiya kimi qiymətləndirdi.

1993-cü ildə Azərbaycanın xilasına tələsən Ulu Öndər Müstəqil Azərbaycan dövlətini qurdu və öz siyasi varisinə əmanət etdi. 42 yaşlı Prezident İlham Əliyevin seçimi yox idi. Ulu öndər onu Azərbaycan xalqına bağışlamışdı, həyatı boyu bu xalqa xidmət etməkdən başqa seçimi də yox idi və gərgin əziyyət, zəhmət bahasına- müstəqilliyin möhkəmlənməsi, dövlətin qüdrətlənməsi yolunda Azərbaycan dövləti 16 ildə yarım əsr irəlilədi, indi isə geriyə yol yoxdur...

Ulu öndərin yolunu davam etdirən İlham Əliyev şəxsiyyəti Azərbaycan tarixində Ulu Öndərdən fərqli olaraq gənc yaşda həm Azərbaycanın keçən bütün tarixində dünyada tanınan qüdrətli dövlət kimi tarixə düşməsinə, həm də Ulu Öndərin irsinin, ideyalarının və siyasi yolunun uğurla davam etdirilməsi ilə Heydər Əliyev fenomenal şəxsiyyətinin adının tarixə qızıl hərflərlə yazılmasının məsuliyyətini üzərinə götürdü.

İlham Əliyev rasional düşüncəli praqmatik baxışlı, optimist və realist siyasətçidir. Prinsipial, səbrli və qətiyyətlidir. Bəlli hədəfə atəş açmağın zamanını dəqiq bilən peşəkardır.

Onun həyat yolu və tarixi missiyası daim Azərbaycan xalqı ilə sıx bağlı olub və hələ Azərbaycan tarixinə qızıl hərflərlə uğurlar, nailiyyətlər və zəfərlər yazdırmaq imkanını Uca Tanrı artıq müdrik dövlət xadimi İlham Əliyevə nəsib edib.

### YOLUNUZ AÇIQ OLSUN, CƏNAB ALİ BAŞ KOMANDAN!!!

Böyük ingilis siyasətçisi və dövlət xadimi Uinston Çörçill demişdir: "Dövlət xadiminin siyasi xadimdən fərqi odur ki, siyasətçi gələcək seçkiləri, dövlət xadimi isə gələcək nəsilləri düşünərək fəaliyyət göstərir".

"Dünyaya gələn insanlar nə üçün gəldiyini bilmirlər, çünki onlar özləri bu dünyaya könüllü olaraq gəlməyiblər, lakin öz tarixlərini yazmaqda, yol ayrıclarındakı seçimlərində müstəqildirlər, yoxsa imtahan omazdı ki... Hər kəs öz portretini yaradıb altına öz imzasın atır".

"Resurs" Analitik İnformasiya Mərkəzi İctimai Birliyi adından Cənab Prezidentimizin DOĞUM GÜNÜ MÜBARƏK OLSUN deyirik, Uca və Qadir Allahdan ona millətimiz və dövlətimiz adına uzun, sağlıqlı, xeyirli-bərəkətli ömür arzulayırıq.

***"Resurs" Analitik İnformasiya Mərkəzi İctimai Birliyi***

### ZƏFƏR FATEHİ!

***P.S.*** 2019-cu ilin dekabrında Prezident İlham Əliyev cənablarının doğum günü ilə bağlı yazdığım və Onun uğurlu siyasi fəaliyyətinin analitik təhlilini ifadə etdiyim - "İlham Əliyevin fəlsəfəsi: bir portret haqqında düşüncələr" sərlöhvəli məqaləmə 2021-ci ilin 24 dekabr tarixində, Müzəffər Sərkərdəmiz, Ali Baş Komandan və Zəfər Fatehimizin 60 illik yubileyi günündə əlavə etmək qərarına gəldim.

Azərbaycan xalqının şanlı və keşməkeşli tarixi onun həyatının unudulmayan anlarının danılmaz salnaməsidir.

Artıq bu gün Azərbaycan xalqı ali rəşadətinin qüdrətli təzahürü ilə yaşayır. 2019-cu ildə hazırladığım məqaləmin sonuncu başlığı "Yolunuz açıq olsun" diləyi ilə tamamlandı və bu yol cənab Prezidentimiz və Onun dəmir yumruğu altında dünyaya həqiqi həmrəylik mücəssəməsini etalon olaraq təqdim edən xalqımız üçün Allah-Təala tərəfindən açıldı. Bu reallıq isə Vətən müharibəsində müşahidə etdiyimiz qəhrəmanlığın və Şanlı Zəfərin istinad nöqtəsi, ilham mənbəyidir!

Azərbaycan xalqı əsrlər boyunca itirəitirə gəldiyi yolunu bu dəfə qələbə və zəfərlə geri döndü, tarix yazdı, tarix yaratdı. Tarixi yaradanlar isə qüdrətli, hər şeyə qadir, xalqının taleyini dəyişdirə bilən ali şəxsiyyətlərdir. Bu gün qələbələri ilə siyasi portretinə ştrix atan Ali Şəxsiyyət məhz Zəfər Fatehi İlham Heydər oğlu Əliyevdir! Bəli, zamanında Qurtuluş tarixini yazan Ulu Öndər Heydər Əliyevin özü qədər inandığı siyasi varisi - İlham Heydər oğlu Əliyev Zəfər tarixini əlavə etdi və bununla sübut etdi ki, Qurtuluş tarixi Yüksəliş tarixi ilə davam etdi və Zəfər tarixi ilə nəticəsini tapdı. Ordumuzun Sərkərdəsi, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 44 gün davam edən Vətən müharibəsinin əsas və həlledici qəhrəmanı olması təkcə Azərbaycan vətəndaşlarının deyil, bütün beynəlxalq icmanın yekdil qənaətidir. Məhz onun düzgün strategiyası sayəsində təxminən 30 il əvvəl Azərbaycanın ərazilərinin 20 faizini işğal etmiş Ermənistan ordusu darmadağın edildi, işğala son qoyuldu, tarixi qələbə əldə edildi. Birmənalı şəkildə qeyd etməliyik ki, Vətən müharibəsində əldə edilən hərbi uğur İlham Əliyevin qələbəsi, onun Sərkərdə düşüncəsinin və mükəmməl strategiyasının birmənalı təntənəsidir. Artıq bu gün əminliklə vurğulaya bilərik ki, 8 Noyabr Zəfər Günü müasir Azərbaycan dövlətinin həyatının ən parlaq anları kimi, tariximizin bundan sonrakı dönəmlərində daim xüsusi qürur və iftixar hissi ilə xatırlanacaq. Çünki bu, millətin ümid, inam, qürur anları idi. Bu, ölkəmizin yeni tarixinin başlanğıcı, yeni inkişaf üfüqlərinin açılması məqamıdır. Bu məqamı isə xalqının Lideri İlham Heydər oğlu Əliyev bizlərə yaşatdı - özünün mütərəqqi siyasi poerteti ilə...

Və ifadələrimi, fikirlərimi bu dəfə daha bir diləyimlə, arzumla başa çatdırmaq istərdim - Yolun açıq olsun Azərbaycan!

# Mətbuat Şurasında Nəsir İmanquliyevin 110 illik yubileyi ilə bağlı toplantı keçirilib

***Azərbaycan jurnalistikasının görkəmli siması, böyük ziyalı, pedaqoq, alim Nəsir İmanquliyevin anadan olmasından 110 il ötür. Bu münasibətlə Azərbaycan Mətbuat Şurasında ustad sənətkarla bağlı anım tədbiri keçirilib. Toplantı iştirakçılarının bir qrupu əvvəlcə II Fəxri Xiyabanda N.İmanquliyevin məzarını ziyarət edib, məzarı önünə əklil qoyublar.***




Tədbiri açan MŞ sədri Əflatun Amaşov bildirib ki, Nəsir İmanquliyev Azərbaycan milli mətbuatında və publisistikasında Həsən bəy Zərdabi, Mirzə Cəlil, Əli bəy Hüseynzadə, Üzeyir Hacıbəyli ənənələrinin davamçısı olmaqla yanaşı, özünəməxsus parlaq ziyalı obrazı yaratmış şəxsiyyətdir. Onun həyat və yaradıcılığı jurnalist peşəkarlığı ilə ziyalı cəsarəti və mərdliyinin bənzərsiz və təkrarsız nümunəsidir. "Nəsir müəllimin ömür yoluna diqqət yetirən zaman, onun haqqında söylənilən fikirləri oxuduqca düşünürsən ki, bir adam necə bu qədər geniş fəaliyyət diapazonuna malik ola bilərdi? Hesab edirəm ki, bunu yalnız və yalnız Vətənini, xalqını sidq ürəklə sevən insan bacarardı. Nəsir müəllim əməli ilə xalqını sevməyin son dərəcə böyük örnəyi idi və örnək kimi də qalacaq. Onun ana dilimizə qarşı basqılara mətanətlə sinə gərməsi, inadkarlığı, mərdliyi heyrət doğurur. Bildiyiniz kimi, o zaman "Yeni yol" qəzeti nəşr olunurdu. O qəzetdə Azərbaycan dili, milli kimlik məsələləri qabardılırdı. Sovet sistemi buna qarşı çıxaraq nəşrin fəaliyyətini dayandırdı. Həmin vaxt Nəsir müəllim Azərbaycan rəhbərliyinə, şəxsən Mircəfər Bağırova etiraz məktubu ünvanladı", - deyən Ə.Amaşov həmçinin bildirib ki, N.İmanquliyevin jurnalistlik fəaliyyətində "Bakı" və "Baku" axşam qəzetləri müstəsna önəm daşıyıb. Ustad qələm sahibinin qurucusu olduğu və 30 il redaktorluq etdiyi bu nəşrlər Azərbaycan jurnalistikasına yeni ahəng və ruh gətirib. MŞ sədri çıxışında eyni zamanda N.İmanquliyevi tələbələrin sevimlisi olan tələbkar pedaqoq, qayğıkeş müəllim kimi xarakterizə edən cəhətlərdən də söz açıb.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin baş direktor müavini Dağbəyi İsmayılov özünün jurnalist kimi formalaşmasında Nəsir İmanquliyevin böyük rolunun olduğunu vurğulayıb. O bildirib ki, Nəsir müəllim tələbkarlığı ilə redaksiyanı nizamda saxlamaq qabiliyyətinə malik idi. Redaksiyada yaradıcı mühit, böyük məsuliyyət formalaşdırırdı. Tənqidlə ictimai əhəmiyyət daşıyan məsələlərə sanki nəfəs verirdi: "Biz gənc jurnalistlər Nəsir müəllimin məsləhətləri sayəsində yazdığımız yazıların doğurduğu reaksiyadan onun necə düzgün istiqamət müəyyənləşdirdiyini hiss edirdik və bu bizi ruhlandırırdı".

Uzun illər "Bakı" və "Baku" qəzetlərində çalışmış, hazırda bu nəşrlərin baş redaktoru olan Ağahüseyn Hüseynov bildirib ki, Nəsir İmanquliyev Azərbaycanın həm mətbu, həm də ictimai-siyasi həyatında böyük şəxsiyyətdir. "Mən xüsusən Nəsir müəllimin kadr seçimi üzərində dayanmaq istərdim. O, bir ünsiyyəti ilə müəyyənləşdirirdi ki, qarşısında dayanan adamdan jurnalist çıxacaq, ya yox. Unikal duyumu vardı. Böyüklə böyük, kiçiklə kiçik idi. Qəzet əməkdaşlarının hər birinin qəlbinə yol tapmağı bacarardı. Yaratdığı məsuliyyət mühiti hamını yaradıcılığa səsləyirdi", - deyə A.Hüseynov əlavə edib.

"Fikirlərdə, düşüncələrdə əbədi qalmaq hər kəsə nəsib olan xoşbəxtlik deyil. Nəsir müəllim belə şəxsiyyət idi. O, yaradıcılıqda yaşıl işıq kimi xatırlanır", - deyən Azərbaycanın əməkdar jurnalisti, yazıçı-publisist Flora Xəlilzadə tələbəsi olduğu Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alarkən ustad qələm sahibi pedaqoqla bağlı xatirələrindən söz açıb. Onun tələbələrə qayğısını ifadə edən konkret misallar göstərərək vurğulayıb ki, Nəsir İmanquliyevin malik olduğu ali keyfiyyətlərdən söz açmaqla onların hamısı haqqında danışmaq mümkün deyil.






Veteran jurnalist Məzahir Süleymanzadə çıxışında Nəsir İmanquliyevin rəhbərlik etdiyi "Bakı" qəzetinin dil və üslub xüsusiyyətləri baxımından digər dövrü nəşrlərdən fərqləndiyini deyib. "Qəzetdəki materiallar elə dildə yazılırdı ki, hamı onu rahat başa düşürdü. Buna xalq dili deyilir. Baxmayaraq ki, nəşr rəsmi status daşıyırdı, onun mövzu dairəsi həddən artıq geniş idi, ənənəvi konyukturanın tələblərini aşırdı. Bu cəhətlər qəzetə pupulyarlıq qazandırmışdı. İnsanlar köşklər qarşısında növbədə dururdular ki, "Bakı"nı alsınlar. Bütün bunlar isə şübhəsiz Nəsir İmanquliyevin səriştəsindən, zirəkliyindən, yenilikçiliyindən irəli gəlirdi", - deyən M.Süleymanzadə ustad jurnalisti pedaqoq kimi də xarakterizə edən keyfiyyətlərdən söz açaraq bildirib ki, onun tələbələrindən olmaq böyük xoşbəxtlikdir.

Əməkdar mədəniyyət işçisi, Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının üzvü, şairə, publisist və nasir Telli Pənahqızı Nəsir İmanquliyevin ictimai-siyasi, mədəni həyatda örnək şəxsiyyət olmaqla yanaşı, əvəzsiz liderlik xüsusiyyətlərini də daşıdığını bildirib: "Onun fikirləri, tövsiyələri insanın formalaşmasına müstəsna təsir göstərirdi. Nəsir müəllim hər birimizin həyatında gəzərgi kölgə, mayak idi. Nə qədər ki, xatirələrimiz var o, daim yaddaşlarda qalacaqdır. Xatirələr isə bitib-tükənmək bilmir. Bu gün çox böyük şükranlıq hissi ilə onu xatırlayıram".

Azərbaycanın əməkdar artisti, televiziya aparıcısı Nailə İslamzadə bildirib ki, nurlu siması, ali keyfiyyətləri ilə dəyər daşıyıcısı, məktəb olan insanlardan söz açmaq, onların həyat və fəaliyyətinin müxtəlif istiqamətlərini yada salaraq ruhlarına ehtiram göstəmək mənəvi borcdur. Nəsir İmanquliyev də belə şəxsiyyətlərdəndir. Onun xatirəsi hər zaman yaddaşlarda qalacaq, söz sənətinin davamçıları tərəfindən əziz tutulacaqdır.

Veteran jurnalist, "Bakı" və "Baku" qəzetlərinin baş redaktor müavini Ənvər Məşədiyev çıxışında N.İmanquliyevin rəhbərliyi altında sözügedən qəzetlərdə çalışdığı illərə ekskurs edib. O deyib ki, bu qəzetlər o dərəcədə böyük potensiala malik idilər ki, onun əməkdaşları müxtəlif sahələr üzrə çıxan nəşrlərin də hazırlanıb çapa verilməsində yaxından iştirak edirdilər. Nəsir müəllim özünün tükənməz enerjisi ilə bu işlərin hamısına rəhbərliyi həyata keçirirdi.

MŞ-nin sədr müavini, Beynəxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu bildirib ki, Nəsir İmanquliyev yüksək mənəvi keyfiyyətləri ilə sağlığındaykən axirəti qazanmış simadır. "Əlbəttə, onun şəxsi xarakteri bütövlükdə cəmiyyətin, xalqın mənafelərinin təminatına səfərbər olmuşdu. Hesab edirəm ki, Nəsir müəllim kimi insanlarla cəmiyyət daha da möhkəm olur".

"Milli jurnalistikamızda "Molla Nəsrəddin", "Füyuzat" məktəbi olduğu kimi "Bakı" məktəbi də var. Bu məktəb Nəsir İmanquliyevin məktəbidir ", - deyən filologiya elmləri namizədi, jurnalist və publisist, Nəsir İmanquliyev irsinin tədqiqatçısı Şərəf Cəlilli vurğulayıb ki, ustad jurnalist tarixi özünün həyatı ilə yaradan və yaşadan simadır. "Türkoloji qurultayın Bakıda keçirilməsindən sonra respublikaya təzyiqlər başlamışdı. Bu basqılara qarşı Nəsir İmanquliyev mübarizə aparırdı. "Yeni yol" qəzeti bağlandıqdan sonra Bakıda Mircəfər Bağırova, Moskvada isə Stalinə etiraz məktubu göndərmişdi. Bu cəsur və qorxmaz hərəkətləri ilə həyatını təhlükəyə atmışdı. Böyük Vətən Müharibəsi illərində cəbhəyə yollanmış və "Döyüşən Krım" qəzetində mühüm fəaliyyət yolu keçmişdi. Həmin qəzetdə sonradan Azərbaycan ədəbi mühitində öz sözünü demiş böyük simalar çalışırdılar. Nəşr cəbhədə döyüşən azərbaycanlılar arasında böyük populyarlıq əldə etmişdi. Müharibədən sonra Nəsir müəllim "Kommunist" qəzetinə gəldi. Burada fəaliyyətini davam etdirdi", - deyən Ş.Cəlilli vurğulayıb ki, "Bakı" və "Baku" axşam qəzetləri ilə Nəsir İmanquliyev yaradıcılıq yolunda zirvəyə yüksəldi.

Ş.Cəlilli çıxışında eyni zamanda N.İmanquliyevin radio yaradıcılığı ilə bağlı məqamlardan da söz açıb. O bildirib ki, ustad qələm sahibi böyük cəsarət nümayiş etdirərək Azərbaycan radiosunda "Oxu tar, səni kim unudar" adlı müsabiqə təşkil etmişdi. Radioda ana dilində proqramların geniş yer alması, həmçinin futbol şərhlərinin Azərbaycan dilində səslənməsi bilavasitə N.İmanquliyev şəxsiyyətinin xidmətlərinin nəticəsi olmuşdu.

"Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu bildirib ki, N.İmanquliyev ötən sərin 60-70-ci illərində Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini şöhrətləndirən müəllim idi. T.Aydınoğlu eyni zamanda vurğulayıb ki, ustad sənətkar jurnalistə ictimai xadim obrazı qazandıran şəxsiyyət kimi də tarixdə və onun neçə-neçə tələbələrinin yaddaşında əbədi qalacaqdır.

Toplantıda çıxış edənlərdən "İki sahil" qəzetinin baş redaktorunun birinci müavini İsmayıl Hacıyev, MŞ-nin icraçı katibi Şəmsəddin Əliyev, Azərbaycanın əmədar jurnalisti Aydın Ağazadə, veteran jurnalist Oqtay Ərgünəş və başqaları Nəsir İmanquliyevin Azərbaycanın ədəbiyyatında, incəsənətində özünün koloriti ilə fərqlənmiş tanınmış şəxsiyyətlərin sırasında yer aldığını vurğulayıblar. Onlar bildiriblər ki, ustad jurnalistin həyat və fəaliyyəti bütövlükdə söz sənətinin təntənəsiydi.

# Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində enerji ehtiyatlarının ixracı başlıca amildir

***Sammitdə 44 gün davam edən İkinci Qarabağ müharibəsində qazandığımız Zəfərdən, ermənilərin işğal altında saxladıqları Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklərdən, postmüharibə dövründə azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərindən bəhs edən Prezident İlham Əliyev XXI əsrin ən mühüm infrastruktur layihələrindən olan Cənub Qaz Dəhlizinin əhəmiyyətini də xatırlatmış, Azərbaycanın qitə dövlətlərinin enerji təhlükəsizliyinin təminatındakı rolundan ətraflı bəhs etmişdir.***

*Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak edən Prezident İlham Əliyev perspektivlərdən də söz açaraq bildirmişdir ki, avropalı istehlakçıların tələbinə uyğun olaraq hasilatı artırmaq imkanımız vardır və Avropa Komissiyası bu prosesdə bizə kömək göstərdi*

Dövlət başçımız Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsindəki əməkdaşlığı bölgədə sabitliyin təminatı üçün vacib amil adlandırıb, münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını bildirib. Cənub Qaz Dəhlizinin XXI əsrin ən böyük infrastruktur layihələrindən biri olduğunu vurğulayan Prezident İlham Əliyev bu layihənin son komponenti olan Trans-Adriatik xəttinin işə salınması ilə Azərbaycan qazının Avropa məkanına çatdırılmasını, dünyanın enerji xəritəsinin yenilənməsini tərəfdaş ölkələrin qarşılıqlı əməkdaşlığının məntiqi nəticəsi kimi dəyərləndirmişdir. Azərbaycan qazı artıq Avropa İttifaqının üç ölkəsinə - İtaliya, Yunanıstan və Bolqarıstana çatdırılır. Gələcəkdə Azərbaycan istehsal etdiyi qazın ixrac coğrafiyasını Avropa İttifaqının digər üzv ölkələrinə genişləndirmək niyyətindədir. Dövlətimizin başçısı Azərbaycan qazının etibarlı və yeni mənbə olaraq Avropa İttifaqı bazarına çatdırıldığını vurğulayaraq bildirib ki, qitədə son zamanlar yaranan böhran enerji təhlükəsizliyi baxımından şaxələndirmənin aktuallığını artırıb.

Brüsseldə tarixi əhəmiyyətli iki və üçtərəfli görüşlərdə dünyanın enerji xəritəsini dəyişən qlobal layihələrin reallaşmasında ölkəmizin rolunun yüksək dəyərləndirilməsi Azərbaycanın enerji diplomatiyasının uğurudur.

NATO-nun Şimali Atlantika Şurasının iclasında Azərbaycanın enerji diplomatiyasının çoxşaxəli istiqamətlərindən ətraflı danışılmış, bildirilmişdir ki, Şimal Alyansın 20-yə yaxın ölkəsi Azərbaycandan neft idxal edir. Həmçinin Alyansın 4 ölkəsinin, o cümlədən Türkiyənin Azərbaycandan qaz idxal etdiyi və gələcəkdə bu coğrafiyanın genişləndirilməsi imkanlarının olduğu diqqətə çatdırılıb. Azərbaycanın enerji təchizatı sahəsində etibarlı tərəfdaş olduğu, alternativ mənbə və alternativ xətt üzrə Avropanın enerji təhlükəsizliyinə töhfəsini verdiyi qeyd edilib.



İspaniyanın "El-Pais" nəşrinə, İtaliyanın "İl Sole 24 Ore"" qəzetinə müsahibələrində Avropa dövlətlərinin əsas enerji təminatçısı olan Azərbaycanla qitə dövlətləri arasındakı münasibətlərdən danışan Prezident İlham Əliyev vurğulamışdır ki, bizim ixrac bazarımız ilk növbədə əsasən Türkiyə və Gürcüstan olsa da, sonrakı mərhələdə ölkəmizin ən böyük qaz istehlakçısı İtaliya, Yunanıstan və Bolqarıstandır. Qitə dövlətlərinin enerji böhranından çıxarılması üçün Azərbaycanın enerji coğrafiyasını genişləndirmək potensialı mövcuddur. "Bu il artıq biz Avropa İttifaqına 7 milyard kubmetrdən çox təbii qaz ixrac etmişik. Gələn il biz 9 milyard kubmetr, 2023-cü ildə isə 11 milyard kubmetr qaz ixrac etməyi planlaşdırırıq. Bu rəqəm arta da bilər, ancaq bilirsiniz ki, qaz bazarı neft bazarından fərqlidir" söyləyən Prezident İlham Əliyev bildirmişdir ki, zəngin karbohidrogen ehtiyatlarına malik Azərbaycanda ölkə iqtisadiyyatının şaxələndirilməsi, neft və qaz sahəsindən asılılığın azaldılması üzərində fəal iş aparılır.

"Əsrin müqaviləsi"nin imzalanması ilə başlanan, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft- qaz kəmərləri ilə davam etdirilən, Cənub Qaz Dəhlizinin başa çatması, ölkəmizin etibarlı enerji icraçısı olduğunu təsdiqləyən qlobal layihələrin reallaşması ilə potensial karbohidrogen ehtiyatlarına malik Azərbaycan qazının qitə dövlətlərinə çatdırılması əməkdaşlıq formatının genişlənməsinə də imkan yaradır. Azərbaycan qazı ölkəmizlə əməkdaşlıqda maraqlı olan qitə dövlətləri ilə bağlanılan uzunmüddətli müqavilələr əsasında satılır və öhdəliklər 100 faiz yerinə yetirilir. İllərin təcrübəsi təsdiqlədi ki, Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır. İspaniyadan və İtaliyadan olan jurnalistlərin zəngin qaz ehtiyatına malik Rusiya ilə münasibətlərə dair suallarını cavablandıran Prezident İlham Əliyev Azərbaycanla qitə dövlətləri arasında enerji layihələri üzrə ixraca əvvəlcədən bağlanan müqavilələr əsasında əməl olunduğunu diqqətə çatdırmışdır. Bildirmişdir ki, Bakıdan İtaliyaya qədər uzanan, bir hissəsi dənizin dibi ilə gedən 3500 kilometrlik boru xəttinin inşası bir neçə il davam edib. "Bizim təchiz etdiyimiz qazın həcmi Rusiyanın təchizatı ilə müqayisə edilə bilməz. Rusiyanın Avropaya ixracı 100 milyardlarla kubmetr təşkil edir və bu rəqəm artmaqdadır. Bizim Avropaya ixracımız dediyim kimi, rəqabət təşkil etmir və biz heç vaxt buna rəqabət kimi baxmamışıq. Bizim üçün bu, bir kommersiya layihəsi idi İlk növbədə, bu məsələ ölkələrin liderləri arasında heç vaxt yüksək səviyyədə müzakirə olunmayıb. Bizim neft kəmərlərindən tutmuş, qaz kəmərlərinədək bütün enerji layihələrimiz regionda çox dostyana mühitdə tamamlanıb. Bu, birincisi. İkincisi, Rusiya bizim siyasətimizə, xarici siyasətimizə, enerji siyasətimizə tam hörmət edir. Biz rəqib deyilik. Dəfələrlə qeyd etdiyim kimi, bu məsələlər bəzən süni şəkildə şişirdilir. Biz heç bir halda Rusiyanın rəqibi deyilik. Çünki Rusiya Avropanı yüz milyardlarla kubmetr qazla təchiz edir və Rusiya qazına tələbat artır. Azərbaycan yeni başlayıb və qeyd etdiyim kimi, bizim Avropaya təchizatımız 2023-cü ildə 11 milyard kubmetr olacaq və əgər yeni müqavilələrimiz olmasa, yeni hasilata investisiya yatırmasaq, bu, belə qala bilər. Ona görə də, bu, heç bir halda bizim Rusiya ilə çox müsbət və yaxşı balanslaşdırılmış münasibətlərimizdə mənfi rol oynaya bilməz" sözləri ilə məsələyə aydınlıq gətirən Prezident İlham Əliyev onu da vurğulayıb ki, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində enerji ehtiyatlarının ixracı başlıca amildir. Təbii ki, bu məqamda Cənub Qaz Dəhlizinin potensialından istifadə unudulmamalıdır.

İtalyan jurnalistin qeyd etdiyi kimi, Azərbaycan Cənub Qaz dəhlizinin son seqmenti olan Transadratik qaz kəmərini iki dəfə uzadaraq Yunanıstandan Burqasadək çatdıra bilər. Texniki baxımdan çox mürəkkəb, tələb olunan vəsait cəhətdən çox bahalı olan və möhkəm iradə, qarşılıqlı inam tələb edən Cənub Qaz Dəhlizinin 4 seqmentinin əsas maliyyə yükünü öz üzərinə götürən Azərbaycan layihənin tam başa çatmasından əvvəl avropalı istehlakçılarla müqavilələr imzalamışdı. "Bizim qazımız müqavilə əsasında alındı və qiymətlə bağlı, belə deyək, qaz böhranı zamanı bizim istehlakçılar heç bir dəyişiklik hiss etmədilər" sözləri ilə Azərbaycanın etibarlı qaz ixracatçısı olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev perspektivlərdən də söz açaraq bildirmişdir ki, avropalı istehlakçıların tələbinə uyğun olaraq hasilatı artırmaq imkanımız vardır və Avropa Komissiyası bu prosesdə bizə kömək göstərdi.

"Beləliklə, bu, ciddi artımdır. Lakin hasilatı artırmaq üçün biz, əlbəttə ki, investisiya yatırmalıyıq və bunu etmək üçün bizim istehlakçılarla müqavilələrimiz olmalıdır. Beləliklə, birincisi müqavilələr, ikincisi investisiya və üçüncüsü qaz. Prosesin mərhələlərinin ardıcıllığı belədir. Lakin biz hazırıq, sizin qeyd etdiyiniz kimi, nəhəng yataqlarımız var, tam yeni, müasir infrastrukturumuz var, Avropanın digər yerlərinə də bağlayıcıların çəkilməsi mümkündür. Siz Balkanları qeyd etdiniz və mən Mərkəzi Avropanı əlavə edərdim. Bu, bizim üçün təchizatın şaxələndirilməsi və istehlakçılar üçün şaxələndirmə olacaq" sözləri perspektivlərin hasilatçı və istehlakçılar üçün əlverişli olacağına, bölgədə sabitliyə inam yaradacığına əminliyi artırır.

Bir neçə il bundan əvvəl "Cənub Qaz Dəhlizi enerji resurslarının şaxələndirilməsi işində də çox önəmli layihədir və hesab edirəm ki, əvəzolunmaz layihədir. Bu layihədə biz həm mənbələrin, həm marşrutların şaxələndirilməsini görürük. Çünki, ancaq bu təqdirdə biz tam mənada enerji resurslarının şaxələndirilməsi haqqında danışa bilərik. Sadəcə olaraq, yeni marşrutların açılması və eyni mənbədən qidalanması tam mənada enerji şaxələndirilməsi məsələsi deyil. Biz isə, sözün əsl mənasında, enerji şaxələndirilməsi layihəsini icra edirik. Azərbaycan qazı yeni mənbədir və Cənub Qaz Dəhlizi yeni enerji damarıdır, Avropanın enerji təhlükəsizliyini yenidən tərtib edən layihədir. Bu layihənin həyata keçirilməsində iştirak edən bütün tərəflərin maraqları təmin edilib. Bu da çox önəmlidir. Burada maraqlar balansı gözlənilib" söyləyən Prezident İlham Əliyev Brüsseldə vədini yerinə yetirən bir dövlət başçısı kimi çıxış etməklə, enerji layihələrinin reallaşmasında, hasilatçı və istehlakçı ölkələr arasında əməkdaşlığın güclənməsində, tərəfdaşlıq formatının yaranmasında yaxından iştirak edən Avropa İttifaqı ilə münasibətləri də yüksək qiymətləndirdi.

***Xuraman İsmayılqızı***

***“Minsk Qrupunun fəaliyyəti uğursuzluq idi. Biz həqiqəti deməliyik. Məsələnin gün işığı kimi aydın olduğu halda, biz siyasi korrektlik naminə bunun əksini söyləyə bilmərik". Bu barədə Prezident İlham Əliyev Brüsseldə İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsində Minsk Qrupunun fəaliyyəti ilə bağlı suala cavabında bildirib.***



# İlham Əliyev: “Minsk Qrupunun fəaliyyəti uğursuzluq idi, biz həqiqəti deməliyik”

“Əgər Minsk ”qrupunun həmsədrləri - dünyanın aparıcı ölkələri, Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 3-ü, 3 nüvə dövləti, dünyanın ən güclü ölkələri Ermənistanın işğalına son qoya bilmədilərsə və ya bunu etmək istəmədilərsə, bu, o deməkdir ki, onların fəaliyyəti uğursuz idi. Onlar 28 il fəaliyyət göstərdilər. Təsəvvür edirsiniz? ”, - deyə Prezident İlham Əliyev qeyd edib. Dövlətimizin başçısı bildirib ki, Minsk Qrupu 1992-ci ildə fəaliyyətə başladı, üç aparıcı ölkə isə bundan bir neçə il sonra həmsədr oldu. Lakin istənilən halda, 20 ildən çox fəaliyyət göstəriblər, nəticə sıfra bərabər olub: ”Ermənistanı Azərbaycan ərazilərini tərk etməyə və BMT Təhlükəsizlik Şurasının bunu tələb edən qətnamələrinə əməl etməyə yola gətirmək və ya məcbur etmək üçün yeganə yol Ermənistana qarşı sanksiyalar tətbiq etmək idi. Biz bilirik ki, müəyyən hallarda bu sanksiyalar digər ölkələrə qarşı tətbiq olunur, lakin Ermənistana qarşı yox. Yenə də ikili standartlar, yenə də ədalətsiz yanaşma”.

### ”AZƏRBAYCAN XALQI MİNSK QRUPU ÜÇLÜYÜNÜN DAİMİ SƏFƏRLƏRİNDƏN YORULMUŞDU”

Prezident İlham Əliyev ”İl Sole 24 Ore” qəzetinə müsahibəsində onu da söyləyib ki, Azərbaycan xalqı Minsk qrupunun daimi səfərlərindən yorulmuşdu: ”Minsk qrupu ATƏT-in mandatına əsasən, 1992-ci ildən münaqişəni həll etməyə məcbur idi. Onlar ötən il noyabrın sonunadək, biz 44 gün ərzində əraziləri azad edənə kimi 28 il ərzində fəaliyyət göstərdilər”.

Dövlət başçısı bildirib ki, Minsk qrupunun fəaliyyəti ilə bağlı fikrim Azərbaycan xalqının fikrindən fərqlənmir: ”Bu, uğursuzluq idi. Biz həqiqəti deməliyik. Məsələnin gün işığı kimi aydın olduğu halda, biz siyasi korrektlik naminə bunun əksini söyləyə bilmərik. Əgər Minsk qrupunun həmsədrləri - dünyanın aparıcı ölkələri, Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 3-ü, 3 nüvə dövləti, dünyanın ən güclü ölkələri Ermənistanın işğalına son qoya bilmədilərsə və ya bunu etmək istəmədilərsə, bu, o deməkdir ki, onların fəaliyyəti uğursuz idi. Onlar 28 il fəaliyyət göstərdilər. Təsəvvür edirsiniz?”.

Prezident İlham Əliyev ”Sözünüzü kəsdiyimə görə, üzr istəyirəm. Madrid prinsiplərindən başlayaq. Lakin bu, uzun dövrdür” sualına cavabında isə qeyd edib ki, Madrid prinsipləri 10 il əvvəl idi. Onlar isə 1992-ci ildə fəaliyyətə başladılar: ”Mənim qeyd etdiyim üç aparıcı ölkə isə bundan bir neçə il sonra həmsədr oldu. Lakin istənilən halda, 20 ildən çox fəaliyyət göstəriblər, nəticə sıfra bərabər olub. Bəs, niyə? Bəlkə də ona görə ki, siz qeyd etdiyiniz kimi, status-kvo onlar üçün qəbuledilən idi. Buna baxmayaraq, sizə deyə bilərəm ki, müəyyən mərhələlərdə, hətta Minsk qrupu həmsədr ölkələrinin dövlət başçıları səviyyəsində müsbət bəyanatlar var idi ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Bu, bizi çox ümidləndirirdi. Lakin əfsuslar olsun ki, heç bir hərəkət yox idi. Bu, çox sadə idi. Mən bu məsələni dəfələrlə qaldırmışam. Ermənistanı Azərbaycan ərazilərini tərk etməyə və BMT Təhlükəsizlik Şurasının bunu tələb edən qətnamələrinə əməl etməyə yola gətirmək və ya məcbur etmək üçün yeganə yol Ermənistana qarşı sanksiyalar tətbiq etmək idi. Biz bilirik ki, müəyyən hallarda bu sanksiyalar digər ölkələrə qarşı tətbiq olunur, lakin Ermənistana qarşı yox. Yenə də ikili standartlar, yenə də ədalətsiz yanaşma. Azərbaycan xalqı Minsk qrupu üçlüyünün bu daimi səfərlərindən yorulmuşdu. Onlar ildə bir neçə dəfə gəlib-gedirdilər və heç bir nəticə yox idi. Onların fəaliyyəti faktiki olaraq 2019-cu ildən sonra, Ermənistanın baş naziri ”Qarabağ Ermənistandır” bəyan edəndən sonra tamamilə iflic oldu. Bu, o demək idi ki, danışıqların sonudur. Çünki əgər Ermənistan ”Qarabağ Ermənistandır” deyirsə, nə barədə danışmaq olar? Digər məsələ ondan ibarətdir ki, bir qədər sonra Ermənistan rəhbərliyi dedi ki, Qarabağ müstəqil ölkədir. Bu da əvvəlki bəyanatla ziddiyyət təşkil edirdi. Lakin Minsk qrupu reaksiya vermədi. Onlar hətta bu bəyanatı pisləmədilər. Əlbəttə ki, bu cür davranış yalnız Ermənistanı danışıqlar masasında mövqeyini möhkəmləndirməyə və işğalı sonsuz etməyə cəsarətləndirdi. Ermənistanın hədəfi bu idi və təəssüflər olsun ki, Minsk qrupu bu işdə onlara kömək etdi”.



BMT TŞ-nin daimi üzvü olan beş ölkədən üçünün ATƏT-in Minsk qrupuna həmsədrlik etməsinə baxmayaraq, 28 il ərzində lazımi imkanlar çərçivəsində heç bir əməli iş görülmədi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məqsədilə təsis edilən ATƏT-in Minsk qrupu yarandığı gündən münaqişənin həlli yolunda heç bir səmərəli təşəbbüs göstərmədi. Azərbaycan bu 28 illər ərzində ATƏT-in Minsk qrupunun həmsədrlərindən ədalətli mövqe, işğalçıya təsir və təzyiq, işğala son qoyulması üçün əməli fəaliyyət gözlədi. Amma bunların nəinki heç biri olmadı, hətta Ermənistana BMT qətnamələrinin yerinə yetirilməsi ilə bağlı azacıq da olsa, beynəlxalq təzyiq belə göstərilmədi. Həmsədrlər Ermənistana təzyiq göstərmək, beynəlxalq hüquqdan irəli gələn müvafiq sanksiya rejimlərini tətbiq etmək əvəzinə, faktiki olaraq Ermənistanın işğalçılıq siyasətinə göz yumdular. ATƏT-in Minsk qrupu 28 il ərzində münaqişənin hərbi həll yolunu inkar edərək Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaradılmış status-kvonu Azərbaycana qəbul etdirməyə və münaqişəni diplomatik-siyasi yollarla nizamlamağa uğursuz cəhdlər etmişdi. Nəticədə, etimadı itirən bu qurumun fəaliyyətsizliyi problemin sülh yolu ilə deyil, hərbi əməliyyatlarla həllinə gətirib çıxardı. Və 44 günlük Vətən müharibəsində ərazilərimizin işğaldan azad olunması uğrunda apardığımız mübarizə bütün beynəlxalq qanunlara görə ədalətli olmaqla, dünya erməniliyinə, erməni təəssübkeşliyinə böyük zərbə oldu.

Prezident İlham Əliyev bu qələbənin müəllifi kimi torpaqlarımızı işğaldan məhz ”Dəmir yumruq” siyasəti yolu ilə azad edərək Ermənistanın müdafiəsinə qalxmış dövlətlərə və siyasi mərkəzlərə öz yerlərini göstərdi. Beləliklə, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini, ATƏT-in qərarlarını yerinə yetirməklə 30 ilə yaxın idi ki, təhdid mənbəyi olan münaqişəyə 2020-ci il sentyabrın 27-də Ali Baş Komandan, Prezident İlham Əliyevin ”Dəmir yumruq” siyasəti ilə Azərbaycan Ordusu əkshücum əməliyyatına başlayaraq 44 gün ərzində işğal altındakı torpaqlarını azad etdi, ərazi bütövlüyünü təmin etdi.

### “VASİTƏÇİLƏR NEYTRAL OLMALIDIRLAR”

Prezident İlham Əliyev İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirmişdir ki, ATƏT-in Minsk Qruppu fəaliyyətə başladığı andan hər zaman Azərbaycanın əleyhinə olub: ”Yeni onların əvvəldən fəaliyyəti, mövqeyi bu gün də daxil olmaqla hər zaman bizim əleyhimizə olub. Hesab edirəm ki, gələcəkdə də belə olacaq, heç bir dəyişiklik edilməyəcək. Buna görə Ermənistanla bizim aramızda təxribatlar, gərginliklər, anlaşmazlıqlar, ümumiyyətlə, hər hansı bir problemlər baş verdikdə Azərbaycan bu məsələləri özü yoluna qoyur, özü də həll edir. Bizə ATƏT-in Minsk qrupu kimi vasitəçi lazım deyil. Çünki onların mövqeyi ortadadır. Fransanın bu günlərdə özlərini dövlət adamları kimi adlandıran separatçı qurumun iki cinayətkarını yüksək səviyyədə qəbul etməsi, onlarla görüşlər keçirməsi, bəyanatların verilməsi, yeni bu Fransanın mövqeyi deyilmi? Təbii ki, mövqeyidir. Bu 44 günlük müharibə dövründə Fransa və onun prezidenti Emmanuel Makron ermənilərdən çox ermənilik edirdi. Bu gün də həmin mövqeyi davam etdirirlər. Ona görə də bizə Fransa kimi həmsədr lazım deyil. Ümumiyyətlə, ATƏT-in Minsk Qrupu kimi həmsədrlik edən qurum lazım deyil. Biz torpaqlarımızı işğaldan azad etmişik, qalan digər problemlərimizi də tədricən həll edəcəyik”.

Göründüyü kimi, vasitəçi tərəfsiz və ədalətli olmalıdır. Prezident İlham Əliyev müsahibələrində, görüşlərində də dəfələrlə vurğulayıb ki, vasitəçilər neytral olmalıdırlar: ”Vasitəçilər vəziyyətlə bağlı necə fikirdə olmaqlarından, bizimlə və ya Ermənistanla əlaqələrinin nə dərəcədə yaxın olmağından asılı olmayaraq neytral olmalıdırlar”.

### “ARTIQ MÜNAQİŞƏ TARİXDƏ QALIBDL İNDİ İSƏ YENİ DÖVR BAŞLAYIB - QURUCULUQ DÖVRÜ, BƏRPA DÖVRÜ”

Bəli, artıq müharibə bitib, münaqişənin həll olunmasından bir il ötüb. Artıq Azərbaycanın həyatında yeni dövr - quruculuq, torpaqlarımızın bərpası dövrü başlanıb. 30 ilə yaxın dövrün işğalının Ermənistana nə verdiyini yalnız və yalnız bir sözlə ifadə edə bilərik ki, uğursuzluq. İkinci Qarabağ müharibəsində Zəfərimiz Azərbaycanın qarşısında böyük imkanlar açıb. Və bu gün Ermənistanın müdafiəsinə qalxan, erməni lobbisinin əlində alətə çevrilən dövlətlər və siyasi mərkəzlər yaxşı anlayırlar ki, ”status” məsələsini ortaya atmaqla Azərbaycana təsir edə bilmələri qeyri-mümkündür. Göründüyü kimi, Azərbaycanın ATƏT-lə münasibətlərində yeni mərhələ başlayır. Dövlət başçımızın dediyi kimi, hər zaman öz prinsiplərinə sadiq qalan Azərbaycan bundan sonra da bu siyasətini davam etdirəcək. Bu da ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcək. Bir sözlə, artıq Minsk qrupu və onun həmsədrlərinin addımları məşhur el məsəlimizdə deyildiyi kimi, ”öz cəzandır, çək!”. Bizim artıq nə danışıqlara, nə Minsk qrupuna, nə də həmsədrlərə ehtiyacımız var. Bizim öz tənzimləyicimiz - ”Dəmir yumruğumuz” var. Necə ki, 44 gündə də bu yumruq öz tarixi missiyasını layiqincə yerinə yetirdi... Ədalət Zəfər çaldı. Ermənistan da, onun yanında duranlar da layiqli cavablarını aldılar. Prezident İlham Əliyevin sözləri ilə desək: ”Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildi. Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk qrupu yox!...Bu, reallıqdır...”

Bir sözlə, həqiqət budur ki, indiki şəraitdə bizim ATƏT-in Minsk Qrupuna ehtiyacımız yoxdur. Ümumiyyətlə, ATƏT-in Minsk Qrupu kimi həmsədrlik edən qurum lazım deyil. Çünki Azərbaycan xalqı bu üçlüyün səfərlərindən yorulub. Prezident İlham Əliyev Brüsseldə İtaliyanın ”İl Sole 24 Ore” qəzetinə müsahibəsində dediyi kimi: ”Azərbaycan xalqı Minsk qrupu üçlüyünün bu daimi səfərlərindən yorulmuşdu. Onlar ildə bir neçə dəfə gəlib-gedirdilər və heç bir nəticə yox idi...Əlbəttə ki, bu cür davranış yalnız Ermənistanı danışıqlar masasında mövqeyini möhkəmləndirməyə və işğalı sonsuz etməyə cəsarətləndirdi. Ermənistanın hədəfi bu idi və təəssüflər olsun ki, Minsk qrupu bu işdə onlara kömək etdi”.

Ona görə də Minsk Qrupu öz fəaliyyətini yeni reallıqlara uyğun qurmalı, Azərbaycanla Ermənistan arasında qarşılıqlı etimad mühitinin formalaşmasını nəzərdə tutan təşəbbüslərlə çıxış etməlidir. Əgər edə bilməyəcəksə, dövlət başçısının dediyi kimi: ”Bu, uğursuzluq idi. Biz həqiqəti deməliyik. Məsələnin gün işığı kimi aydın olduğu halda, biz siyasi korrektlik naminə bunun əksini söyləyə bilmərik”.

**RƏFİQƏ HÜSEYNOVA**

# Prezident İlham Əliyev diplomatiyası və siyasi qətiyyəti

***Son 18 ildə müstəqil Azərbaycanda güclü dövlət idarəçiliyinin mövcudluğu dövlətimizin tarixində ən uğurlu inkişaf dövrü kimi xarakterizə edilir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında güclü iqtisadiyyata, dinamik inkişafa, dünya dövlətləri sırasında xüsusi imicə malik olan ölkəmiz dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən ölkəsi kimi müasir dünyanın çağırışlarına cavab olaraq yeni dövrünü yaşayır.***



Dövlət başçısının imzaladığı fərman və sərəncamlar, qəbul etdiyi praqmatik, real qərarlar ölkəmizin dinamik yüksəlişini təmin edib. Regionun ən güclü və nüfuzlu dövlətinə çevrilən Azərbaycanın iştirakı olmadan regionda hansısa bir strateji layihə reallaşdırılmır. Əlbəttə ki, Cənab İlham Əliyevin 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmiz bütün sahələr üzrə sürətli inkişaf yoluna qədəm qoydu. Dövlət başçısının verdiyi bütün vədlər və təqdim etdiyi proqramlar ardıcıllıqla və dəqiqliklə yerinə yetirilib. Əldə edilən uğurlar, nailiyyətlər Prezident İlham Əliyevin siyasətinə olan etimadı daha da gücləndirib. 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına müraciət edərək, namizədliyini siyasi varisi Cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edərkən bildirmişdi: "İnanıram ki, Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu inam Ulu Öndərin siyasi varisi Cənab İlham Əliyevin üzərinə böyük məsuliyyət qoyurdu. Cənab İlham Əliyev 2003-cü ildə ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında bildirdiyi sözləri xatırlatmaq yerinə düşər: "Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam". Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti oldu və xalqın etimadını doğrultdu. Ötən on səkkiz il aydın şəkildə göstərdi ki, Cənab İlham Əliyev Prezidentliyi dövründə ölkə həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. Xalqın taleyüklü məsələləri dövlət başçımız tərəfindən həllini tapıb. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir. Bu inkişaf Ağcabədi rayonundan da yan ötməmişdir. Hər şeydən əvvəl qeyd etmək yerinə düşər ki, son 18 ildə Ağcabədi rayonunda həyatın bütün sahələrində böyük inkişaf və yüksəliş əldə edilmişdir. Ümumi məhsul istehsalı dəfələrlə çoxalmış, onlarca müxtəlif təyinatlı emal müəssisəsi işə salınmış, intizam və tələbkarlıq daha da artırılmışdır. Bütün bunlar isə heç şübhəsiz ki, ölkə Prezidenti İlham Əliyevin bölgələrə, o cümlədən Ağcabədiyə göstərdiyi diqqət və qayğının, rayonun sosial-iqtisadi və mədəni inkişafı ilə bağlı imzaladığı sərəncamların bilavasitə nəticəsidir. Ölkə Prezidenti təkcə Ağcabədi rayonuna 7 dəfə səfər etmiş və bir çox obyektlərin açılışında iştirak etmişdir. Heç də təsadüfi deyildir ki, bu gün Ağcabədi şəhərinin simasını gözəlləşdirən müxtəlif təyinatlı binaların, park və xiyabanların, küçə və meydanların, demək olar ki, hamısı məhz son illərdə reallaşıb. Hər addımda yüksək zövq və səliqə-səhman, qadir insan əlinin yaratdığı gözəlliklər diqqəti cəlb edir və bu, insanlarda rahatlıq və xoş əhval-ruhiyyə yaradır. Heydər Əliyev muzeyi, Qarabağ müharibəsi əlilləri üçün 3 mərtəbəli, 24 mənzilli yaşayış binası, YAP-ın Aağcabədi rayon təşkilatının, Ağcabədi rayon Mərkəzi Xəstəxanasının, Bayraq Muzeyinin inzibati binaları və s. tikilib istifadəyə verilmişdir. Son illər Ağcabədidə onlarca yeni məktəbin, tibb müəssisəsinin tikilib istifadəyə verilməsini, yüz kilometrlərlə yol çəkilişini, içməli su və kanalizasiya layihələrini, elektrik enerjisi və təbii qaz təminatını, Olimpiya İdman Kompleksinin min hektarlarla torpaq sahəsinin əkin dövriyyəsinə cəlb edilməsini də minnətdarlıq hissilə xatırlamaq istəyirik.

Dinamik inkişaf yolunda olan Azərbaycan bu gün torpaqlarını işğaldan azad edən qalib xalqdır. 44 günlük Vətən müharibəsi Cənab İlham Əliyevin qətiyyəti, hərbi qələbəni siyasi qələbəyə çevirən diplomatik məharəti nəticəsində Zəfər ilə sona yetdi. Azərbaycan Prezidenti Qarabağın tək coğrafi deyil, həm də mənəvi-siyasi yüksəkliyi olan, Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşanın azad olunmasını xalqa bəyan edərkən bu Qələbəni Ümummilli Liderin vəsiyyətinin həyata keçməsi kimi dəyərləndirdi: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim".

Azərbaycanın həm hərb meydanında, həm də diplomatiya sahəsində Ermənistanı diz çökdürməsi dövlətimizin gücünün göstəricisidir. Bütün dünya Ordumuzun gücünü, işğalçı Ermənistanın məğlubiyyətini gördü. Cənab Prezidentin Liderlik xüsusiyyətlərinin ən mühüm cəhətlərindən olan qətiyyəti Vətən müharibəsinin ilk anlarından başlayaraq, öz bəhrəsini verdi. Azərbaycan xalqı başda olmaqla, bütün türk dünyası bu tarixi Zəfəri yaşadı. "Dəmir yumruq" əməliyyatı XXI əsrin müharibəsi olaraq dünya tarixində yer aldı. Müzəffər Ali Baş Komandan çıxışlarının birində vurğuladığı kimi, "Biz yeni reallıq yaratmışıq. Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq. Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır. Bəli, başqa yolları, çarələri yoxdur. Əks təqdirdə, "dəmir yumruq" yenə qılınc kimi başlarının üzərindədir və hər an yenidən işə düşə, sarsıdıcı zərbəsini endirə bilər". Qarabağ Zəfəri sayəsində regionda yaranmış yeni geosiyasi vəziyyət təkcə region dövlətlərinə deyil, bütün Avrasiya məkanında sülh və inkişafa yol açır. Bu gün Zəngəzur dəhlizinin yaradılması təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan hadisə kimi əhəmiyyətə malikdir. Zəngəzur dəhlizi türk dünyasını, Avropanı, eləcə də qonşu dövlətləri birləşdirəcək bir layihədir.

Günümüzün reallığı, əsas hədəf Qarabağın bərpası və Böyük Qayıdış strategiyasının reallaşdırılmasıdır. Azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması əsas məsələlərdəndir. Artıq irimiqyaslı layihələr icra olunur. Dövlət başçısının siyasi iradəsi, qətiyyətli mövqeyi nəticəsində bu gün doğma evimizə - Qarabağa yol almışıq. Qarabağ yenidən qurulur. Böyük Qayıdış Azərbaycanı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin uzaqgörən, müdrik siyasəti nəticəsində daha qüdrətli, güclü dövlətə çevirəcək.

***RÖVŞƏN ƏHMƏDOV,***
***YAP Ağcabədi rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən***

# DMA ilə "Azerconnect" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi ilə İKT bazarında ən böyük işəgötürənlərdən biri olan "Azerconnect" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi Dövlət Məşğulluq Agentliyinin İdarə heyətinin sədri Mustafa Abbasbəyli və "Azerconnect" şirkətinin Baş direktoru Emil Məsimov imzalayıb.**

Memoranduma əsasən, tərəflər arasında Agentliyin fəaliyyət istiqamətləri və qarşılıqlı maraq kəsb edən layihələr üzrə əməkdaşlıq qurulacaq, əmək bazarının tələblərinə uyğun işsiz və işaxtaran şəxslərin peşəyönümünün, peşə hazırlığının təmin edilməsi, bilik və bacarıqların artırılması istiqamətində "Azerconnect" şirkəti ilə əməkdaşlıq ediləcək.

Sənəddə həmçinin, korporativ sosial münasibətlərin inkişafı istiqamətində təkliflərin hazırlanması, "Məşğulluq Marafonu" çərçivəsində "Azerconnect" tərəfindən Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və müharibədə yaralanmış qazilərin məşğulluğuna dəstəyin verilməsi və müvafiq fəaliyyətin həyata keçirilməsi, birgə innovativ layihələrin, tədbirlərin, forumların həyata keçirilməsi nəzərdə tutulub.

Memorandumda sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün əlavə iş yerləri və sosial müəssisələrin yaradılmasına marağın artırılması üçün Agentlik tərəfindən müxtəlif xarakterli həvəsləndirici tədbirlər, o cümlədən proqram və layihələrin həyata keçirilməsi, aktiv məşğulluq tədbirlərinə cəlb olunan şəxslərin fəaliyyətinin dəstəklənməsi və inkişaf etdirilməsi məqsədilə "Azerconnect" şirkəti tərəfindən əlavə dəstəyin verilməsi, peşə hazırlığına cəlb olunan şəxslərin şirkətdə istehsalat təcrübəsi keçmələri və müvafiq işlə təmin olunmasına şirkət tərəfindən köməklik göstərilməsi öz əksini tapıb.



***Azərbaycanda qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin prioritet istiqamətlərini təşkil edir. Ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması üçün ekspertlər klaster yanaşmanı məqbul sayırlar. Kalster yanaşma zamanı Azərbaycanda perspektivi aydın görünən bir neçə sahənin inkişaf etdirilməsi əsas götürülür ki, bunlardan da biri turizm sektorudur. Digər sektorlardan fərqli olaraq turizm ekologiyaya zərər vurmayan, xammal və ya industrial texnologiya tələb etməyən, faydalı qazıntıların istifadəsinə ehtiyac duymayan bir sektordur. Təsadüfi deyil ki, bir çox ölkələrin əsas gəlirləri məhz bu sektordan əldə olunur.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Kənd turizminin inkişafı sosial-iqtisadi vəziyyətə necə təsir edə bilər?

*Kənd turizminin inkişafı iqtisadi gəlirlərini artırmaqla yanaşı, əhalinin sosial rifahının yaxşılaşmasına da töhfə verə bilər*

Azərbaycan çoxcəhətli təbii şəraiti, olduqca zəngin mədəni və təbii resursları, xarici və daxili turizmin təşkili üçün böyük potensiala malikdir. Respublikamızın əlverişli iqlim şəraiti, ilboyu zirvələri qar və buzlaqlarla örtülü olan ecazkar quruluşu, cəlbedici landşaftı, çoxsaylı dağ çayları və şirinsulu gölləri, insanı heyrətə gətirən şəlalələr, yüzlərlə mineral və müalicəvi bulaqlar, narın qumlu dəniz çimərlikləri, palçıq vulkanları, qədim tarixi-mədəni və dini abidələr və s. ölkədə daxili və xarici turizmin inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır. Təbii ki, bu imkandan səmərəli formada yararlanmaq üçün bir sıra digər tədbirlərin də həyata keçirilməsi zəruridir.

Son illər Azərbaycanda yuxarıda qeyd edilən problemlərin həlli, o cümlədən infrastruktur sahələrin inkişafı istiqamətində irimiqyaslı yerli, regional və beynəlxalq layihələr həyata keçirilməkdədir. Bu layihələr müxtəlif istehsal və xidmət sahələrini əhatə etməklə ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynamaqdadır.

Həyata keçirilən layihələrin prioritet istiqamətlərindən biri də infrastruktur sahələrin təkmilləşdirilməsi və müasir tələbata uyğunlaşdırılmasıdır. Bu da təbiidir, çünki köhnə, müasir standartlara cavab verməyən infrastruktur sahələrlə hər hansı inkişafa nail olmaq qeyri-mümkündür.

Bu gün infrastruktur layihələrinə dövlət büdcəsindən ayırmaların ilbəil yüksək templə artması dövlətin bu məsələyə necə böyük həssaslıqla yanaşdığını göstərir. Müşahidə və təhlillərdən aydın olur ki, ölkəmizdə son 10 ildə sürətlə inkişaf edən sahələrdən biri də nəqliyyat sektorudur.

Nəqliyyat xidmətlərinin, yolların və s. inkişafı isə dolayı yolla digər iqtisadi sahələrin dirçəlişinə təkan verir. O cümlədən, bu gün Azərbaycanın ən ucqar kəndlərinədək rahat yolların çəkilməsi, ölkəmizin Şərq-Qərb, Şimal-Cənub kimi iri beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşməsi turizm sektorunun da inkişafına ciddi təsir göstərməkdədir.

Belə ki, həm ölkə daxilində, həm də beynəlxalq səviyyəli yolların yenidən qurulması, yeni yolların çəkilişi ölkənin Avropa və Asiya arasında yerləşən nəqliyyat qovşağı kimi əhəmiyyətini daha da yüksəldir. Azərbaycanın tranzit potensialı artdıqca isə ölkə ərazisindən tranzit kimi istifadə edən xarici daşıyıcıların sayı da çoxalır. Bu da turizmin inkişafında mühüm rol oynayır.

Məlumdur ki, turizmin inkişafında daxili turistlər də xüsusi rol oynayır. Xüsusən, ölkəmizdə kənd turizminin inkişafı əsasən daxili turistlərdən asılıdır. Belə ki, turizmin ekoloji turizm, qış turizmi, idman turizmi və s. müxtəlif növləri içərisində kənd turizmi daha geniş yayılıb. Eyni zamanda, Azərbaycanda da kənd turizminin inkişaf etdirilməsi üçün çox geniş potensıal imkanlar mövcuddur.

Ümumiyyətlə, kənd turizmi Avropa ölkələrində XX əsrin 70-ci illərindən başlayaraq inkişaf edən ekoturizmlə bağlı olub. Kənd turizmi insanların ətraf mühitlə bağlılığına aid olduğuna görə müasir dövrdə ekoturizmin tərkib hissəsi kımi çıxış edir.

Hər bir ölkədə, xüsusilə də əhalisinin təqribən yarısı kənd yerlərində yaşayan Azərbaycan kimi ölkələrdə kənd turizminin inkişafı çox vacibdir. Çünki kənd turizmi şəhər mühitinin kənd mühiti ilə əvəz olunması ilə yanaşı, kənd yerlərində kiçik sahibkarlığın inkişafının, kənd təsərrüfatı məhsullarının istehlakçılara birbaşa çatdırılmasının təmin edilməsində, bölgələrin mövcud potensialından səmərəli istifadə olunmasında xüsusi əhəmiyyətə malikdir.

Araşdırmalardan aydın olur ki, kənd turizmi ümumilikdə, milli park və təbiət ərazilərindən istifadəyə, insanların istirahət tələbatında ətraf mühitlə bağlılığa, mədəni və milli irs nümunələrindən, eləcə də tarixi memarlıq abidələrindən istifadəyə, yüksək keyfiyyətli yaylaq havasına və müalicəvi bulaq sularına daimi tələbatın olmasına əsaslanır .

Azərbaycanda kənd turizminin sürətli inkişafı XX əsrin 70-80-ci illərinə təsadüf edir. Bu dövrdə şəhər əhalisinin kəndlərə istirahətə getməsi daha da kütləviləşdi. Təbii ki, kütləvi axında əsas hissəni əhalinin orta və aztəminatlı təbəqəsi təşkil edirdi. Son dövrlərdə daxili tursitlərin sayı daha da artıb. Bütün bunlar isə təbii ki, son nəticədə turizmin inkişafına təkan verir.

Son illərdə ölkədə həyata keçirilən genişmiqyaslı islahatlar, əksər regionlara və sahələrə dair dövlət proqramlarının qəbulu, onların uğurla icra edilməsi və s. nəticəsində bir çox problemlər tədricən öz həllini tapıb, ölkədə kənd turizminin inkişafı üçün münbit şərait formalaşdırılıb. Bu sahədə isə nəqliyyat əlaqələrinin genişlənməsi, ən ucqar yaşayış məntəqələrinədək abad yolların çəkilməsi, nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəlməsi xüsusilə əhəmiyyətli olub.







Avtomobil yollarının yenidənqurulması və təkmilləşdirilməsi nəinki kənd turizminin, ümumilikdə ölkə turizminin inkişafında mühüm rol oynayır. Son dövrlər, hətta ən mürəkkəb coğrafi şəraitə və dağlıq relyefə malik ərazilərlə nəqliyyat əlaqələri yaradılıb. Ən yüksək zirvədə yerləşən, rəngarəng təbiəti və gözəl mənzərələri olan kəndlərə yol çəkilişi buna sübutdur. Bu ərzilərdə keyfiyyətli turizm xidmətlərinin təşkili ilə yolların çəkilişinə sərf edilən vəsaiti tezliklə dövlət büdcəsinə qaytarmaq və turizmi büdcənin əsas gəlir mənbələrindən birinə çevirmək olar.

Aydındır ki, kənd turizm mərkəzləri əsasən dağlıq rayonlarda- Quba, Qusar, Xaçmaz, Masallı, Şamaxı, Qəbələ, Qusar, Şəki, Gədəbəy, İsmayıllı və s. rayonların ərazisində yerləşir. Lakin Tovuz, Şərur, Ordubad, Daşkəsən, Zaqatala, Lerik, Yardımlı, Qax, Lənkəran, Balakən və s rayonlarda da böyük potensial var.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının da böyük turizm potensialı var, tezliklə bu potensialdan istifadə edilməsinə başlanacaq. Bu zonalarda kənd turizmi, dağ turizmi, ekoturizm, ekstremal turzim daha çox potesiala malikdir. Qış turizmi də bu zonalarda böyük perspektivə malikdir. Yeri gəlmişkən, hazırda qış mövsümüdür, lakin dağlarda yerləşən iri turizm müəssisələrinin qiymətləri çox baha olduğundan yerli turistlər onlardan bəhrələnə bilmir. Kənd turizmi inkişaf etsə, rəqabət çoxalacaq və sadə insanlar da qış turizmindən yararlana biləcək.

Bütün bunlarla yanaşı, son illər, regionlarda- beynəlxalq standartlara cavab verən hava limanlarının tikintisi, rayonlararası və kəndlərarası yollarının yenidən qurulması və yeni yol çəkilişləri turizmin inkişafına verilən ən gözəl töhfədir.

Burada ölkə başçısı cənab İlham Əliyevin bir fikrini xatırlatmaq yerinə düşərdi: ”Harada ki, müasir yol var, o bölgədə mütləq və mütləq inkişaf olacaqdır. Əgər yol yoxdursa, o bölgə inkişaf edə bilməz. Orada istənilən təbii sərvətlər, istənilən infrastruktur, gözəl binalar, mehmanxanalar olsa da, əgər yol yoxdursa və ya bərbad haldadırsa, oraya heç kim gəlməyəcəkdir”.

Turizmin, o cümlədən kənd turizminin inkişafı nəqliyyat və onun infrastruktur sahələrinin inkişafı ilə bir kompleks əmələ gətirir. Bütün bunlar isə ölkədə həyata keçirilən infrastruktur layihələrin turizmin inkişafında, yeni yol çəkilişlərinin isə kənd turizminin inkişafında xüsusi əhəmiyyəti olduğunu bir daha sübut edir.

Son illərdə ölkəmizdə istirahətə və səyahətə üstünlük verən yerli və əcnəbi turistlərin xeyli artması bu sahənin klaster yanaşmada ən vacib sahələrdən olduğunu göstərir. Düzdür, qlobal vəziyyətlə, pandemiya ilə əlaqədər son 2 ildə bu sahədə ciddi problemlər yaranıb və bütün ölkələrdə xarici turistlərin dövriyyəsi minimuma düşüb. Lakin bu hallarda belə daxili turizmin inkişafı üçün heç bir əngəl yoxdur.

Kənd turizmi kiçik sahibkarlığı inkişaf etdirməyə, məşğulluq probleminin həllinə töhfə verməyə, kənd əhalisinin gəlirlərinin artmasına və sosial rifahının yaxşılaşmasına qadirdir. Bunun üçün dövlətin bu sahədə bəzi güzəştlər tətbiq etməsi və stimullaşdırıcı tədbirlər həyata keçirməsi məqsədəuyğundur. Misal üçün, turizm bölgəsində yaşayan və normal tələblərə cavb verən evi olan kənd sakinlərinə çox aşağı faizlərlə uzunmüddətli kreditlərin verilməsi həm onların özünüməşulluğunun təmin edilməsini təmin edə bilər, həm də dövlət büdcəsinə bu fəaliyyətdən köçürülən məbləğlər artar. Həm də əhalinin aşağı gəlirli təbəqəsi də ucuz qiymətə bu turizmdən istifadə edə bilər.

Beləliklə, çox az xərclə tez və yaxşı gəlir əldə ediləcək sahələrdən birinin kənd turizmi olduğu aydın olur. Əhalinin müəyyən bir hissəsinin xaricdə yox, ölkə daxilində turizmdən istifadə etməsi ölkədən valyuta çıxışını azaldar, üstəlik xarici turistlərin və belə sərfləli xidmətlərdən istifadə etməsini təmin etməklə ölkəyə valyuta gəlirlərinin artmasına töhfə verə bilər.

***Elçin Bayramlı***

ANALİZ

SON SƏHİFƏ

SƏS

23 dekabr
2021-ci il

# Paracüdo üzrə növbəti dünya çempionatı Bakıda keçiriləcək



***Azərbaycanda paracüdo üzrə növbəti dünya çempionatı keçiriləcək. Azərbaycan Milli Paralimpiya Komitəsinin yaydığı məlumatda deyilir ki, yarış 2022-ci il noyabrın 7-9-da Bakıda təşkil ediləcək.***

"Paris-2024" XVII Yay Paralimpiya Oyunlarına lisenziya xalları qazandıracaq bu turnirdə 40-dan çox ölkənin aparıcı idmançılarının iştirakı gözlənilir.

Dünya çempionatı AMPK-nın təşkilatçılı- və Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə baş tutacaq. Qeyd edək ki, yarışdan əvvəl beynəlxalq həkimlərin iştirakı ilə idmançılar üçün tibbi təsnifat keçiriləcək.

## «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



**1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868**
**9. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

# Göbələk zəhərlənməsini necə anlamaq olar?



Göbələk demək olar ki bütün fəsillərdə ən çox istifadə olunan qidalardan biridir. Lakin salatlarda, qızardılaraq və s. şəkildə yeyilən göbələk düzgün istifadə olunmadıqda zəhərlənməyə, hətta ölümə də səbəb ola bilər. Samsun Xalq Sağlamlığı müdiri dr. Mustafa Kasapoğlunun fikrincə, təbii mühitdə yetişən və tərkibində zəhərli maddə olan papaqlı göbələklər təzə, qurudulmuş və ya konserv şəklində, çiy və ya bişirilərək yeyilməsi nəticəsində baş verən və ölümlə də nəticələnə bilən ciddi zəhərlənmə mənbəyidir.

Göbələk zəhərlənməsi xüsusilə yağışların bol olduğu dövrlərdə baş verir. Təbii mühitdə yetişən göbələklər arasında zəhərli olanlarına çox rast gəlmək olar. Zəhərli olan və olmayan göbələklərin görünüşündəki fərqlər isə ayırdedici xüsusiyyətə malik deyil. Bu səbəbdən də məlumatsız şəkildə yeyilən göbələyin zəhərlənməyə səbəb ola biləcəyi unudulmamalıdır.

Zəhərlənmə əlamətləri göbələyin tərkibində olan zəhərin xüsusiyyətlərindən asılı olaraq fərqli ola bilər. Əlamətlər bəzi göbələk növlərinin yeyilməsindən 2 saat sonra, bəzi növlərdə isə 6 saat sonra ortaya çıxır. 2 saat sonra zəhərlənmə əlamətləri göstərən göbələklərdən zəhərlənmə zamanı başgicəllənməsi, yuxuya meyil, aşağı təzyiq, bulanıq görmə, üz və boyun nahiyəsində qızarma, nəbzdə artım, ağızda metal dadı, ürəkbulanma, qusma, tərləmə əlamətləri görülə bilər.

Yeyildikdən 6 saat sonra meydana çıxan zəhərlənmələrdə isə ürəkbulanma, qusma, ishal, qızdırma, nəbz artımı, qarın ağrısı, vaxt keçdikcə qaraciyər və böyrək pozuntuları və bu pozuntulardan qaynaqlanan əlamətlər ortaya çıxa və koma, ölümlə nəticələnə bilər. Göbələk yeyən insanda bu əlamətlərdən biri və ya bir neçəsi müşahidə olunduğu təqdirdə mütləq vaxt itirmədən ən yaxın tibbi mərkəzə baş çəkməsi lazımdır.

Göbələk zəhərlənmələrinin müalicəsi əsas etibarilə meydana gələn zəhərlənmə əlamətlərinə əsasən təyin edilir. Dəqiq müalicəsi yoxdur. Bütün müalicələrə baxmayaraq bəzən ölümlə nəticələnən hallar da mövcuddur. Ancaq göbələk zəhərlənməsinin qarşısını almaq mümkündür və bunun üçün təbii mühitdə yetişən göbələklərin yeyilməməsinə diqqət etmək lazımdır.

# Xəbərdarlıq: qar yağacaq, yollar buz bağlayacaq

Sinoptiklər ölkə ərazisində gözlənilən yağıntılı və küləkli hava şəraiti ilə əlaqədar xəbərdarlıq ediblər. Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında dekabrın 22-dən-25-dək havanın arabir yağıntılı olacağı, dekabrın 23-24-də bəzi yerlərdə sulu qara keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, dekabrın 23-də saniyədə 15-18, arabir 20-23 metrədək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-8° enəcək.

Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq dekabrın 21-i axşamdan dekabrın 24-ü axşamadək ölkə ərazisində havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı, əsasən dağlıq və dağətəyi rayonlarda yağıntının intensivləşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, arabir 15-20, bəzi yerlərdə arabir 23-28 metr/saniyəyədək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-10° enəcək. Əsasən dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı ehtimal edilir.



# Sümüklərin əriməsini dayandırmaq üçün bunlara əməl edin!

***İnsan yaşlaşdıqca sümüklər zəifləyir, onların mineral sıxlığı azalır. Buna "osteoporoz" deyilir. Osteoporoz yaşlanma ilə bağlı olan təbii prosess olsa da bu prosesi müəyyən dərəcədə ləngitmək, onun ağırlaşmalarının riskini azaltmaq mümkündür. Bunun üçün həkimlərin bəzi çox sadə tövsiyələrinə riayət etmək lazımdır. Saglamolun.az sizi bu tövsiyələri ilə tanış edir:***

**1.** Fiziki aktivliyinizi artırın. Gün ərzində ən azı 1 saat piyada gəzin. Fiziki aktivliyin az olması osteoporozu sürətləndirən əsas faktorlardan biridir.

**2.** Hər gün açıq havada olun. Gün şüalarının təsirindən dərimizdə D vitamini sintez olunur. D vitamini orqanizmdə kalsiumun mənimsənilməsini təmin edir. Kalsium isə sümüklərimizin əsas "tikinti materialı"dır.

**3.** Siqaret çəkməyin. Araçdırmalar sübut edib ki, siqaret çəkən insanlarda osteoporoz daha sürətlə inkişaf edir.

**4.** Düzgün qidalanın. Qidalanma sağlam və balanslaşdırılmış olmalıdır. Süd məhsulları, balıq, tərəvəzlər (xüsusilə brokkoli, kələm, ispanaq) sümüklərin sağlam və möhkəm qalması üçün ən faydalı məhsullardır. Ac qalmaq, müxtəlif pəhrizlər sümüklərin vəziyyətinə mənfi təsir edir, sümükləri zəiflədir.



## ELAN

**Əzizov Oqtay Əsgər oğluna Saatlı rayonu, A.Bayramov adına Məmmədabad kənd tam orta məktəbi tərəfindən 1998-ci ildə verilmiş attestat itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4600**